


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

5 dekabr 2025-ci il, cümə
№ 222 (7049)
Qiyməti 60 qəpik


Milli azadlıqdan şirin nemət yoxdur!

# Regionun iqtisadi güc mərkəzi

## "Gnomon Wise": Azərbaycan Cənubi Qafqazın lideridir




Bax səh. 2

## Qarşılıqlı etimadın göstəricisi...

### Azərbaycan - Böyük Britaniya: müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifə

Bax səh. 2

## Azərbaycanla Türkiyə hər zaman birlikdədir!

Bax səh. 3

## Türkiyə Naxçıvanda iqtisadi imkanlarını gücləndirir

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Türkiyə Palatalar və Birjalar Birliyi, Qars Ticarət və Sənaye Palatası, "Cahan Holding" və "Marsol Group"un dəstəyi ilə Naxçıvanda 2-ci Azərbaycan-Türkiyə Regional İqtisadi Forumu keçirilib. Muxtar respublikanın, Türkiyənin Qars, İğdır, Ərdahan və Ərzurum vilayətlərinin dövlət və özəl sektor nümayəndələrinin iştirak etdiyi forumda birgə əməkdaşlığın mövcud vəziyyəti və qarşıda duran yeni hədəflər barədə faydalı müzakirələr aparılıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bildirib ki, tədbirin keçirilməsinin məqsədi Azərbaycan və Türkiyə regionları arasında işgüzar əlaqələrin inkişaf etdirilməsi, bu sahədə mövcud potensialın və biznes əməkdaşlığı üçün imkanların səfərbər...

Bax səh. 3





## Sülh, yoxsa hakimiyyət...

Bax səh. 4

## Brexit Brenterlə əvəzlənəcəkmi?

Bax səh. 6

## NATO Ukraynanı tam dəstəkləyəcək

Bax səh. 6

## Fransa prezident seçkilərinə hazırlaşır

Bax səh. 7

## Regionlarımız necə inkişaf edir?

Ölkənin bölgələrinin yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üzrə) böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açıb. Regionlarımız 20 il əvvəlki dövrlə müqayisədə müsbət dərəcədə çox dəyişib. Həyata keçirilən davamlı siyasət regionların inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaradıb.

Dövlət proqramları çərçivəsində görülmüş işlər ölkədə həyata keçirilən ümumi sosial-iqtisadi inkişaf siyasətinə ciddi dəstək vermiş və nəticədə 2004-2024-cü illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,8 dəfə, o cümlədən...

Bax səh. 8



## Daha bir münaqişə sona çatdı

Bax səh. 7



## BMT-dən bədbin proqnoz

Bax səh. 5

# Qarşılıqlı etimadın göstəricisi...

## Azərbaycan-Böyük Britaniya: müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifə

### İlham Əliyev Birləşmiş Krallığın müdafiə üzrə dövlət nazirini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən qonaq, ilk növbədə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin salamlarını dövlətimizin başçısına çatdırdı.

Lord Vernon Koaker ölkələrimiz arasında dostluq və etimada əsaslanan münasibətləri qeyd edərək əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilməsində maraqlı olduqlarını vurğuladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Kir Starmerin COP29-da iştirakını və onunla görüşünü məmnunluqla xatırladı.

İkitərəfli münasibətlərimizin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın enerji sektorundan başladığını və daha sonra bir çox sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev ticarət, investisiya və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifənin açılmasına toxunaraq, bunu qarşılıqlı etimadın göstəricisi kimi qiymətləndirdi.



Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, bütün bunların tarixi əhəmiyyət daşıdığını vurğuladı və bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi roluna toxundu. Dövlətimizin başçısı sülh gündəliyinin təşəbbüskarının məhz Azərbaycan olduğunu dedi və onun irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



# Berlindən Bakıya zəng

Dekabrın 4-də Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Fridrix Merts, ilk növbədə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Kansler Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanın regional sülh təşəbbüslərinin müəllifi olduğunu qeyd edib.

Prezident İlham Əliyev ölkəmizin regionda davamlı sülhün təmin olunması və möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini bildirib.

Telefon danışığı zamanı Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Kansler Fridrix Merts dövlətimizin başçısını Almaniyaya səfərə dəvət edib. Dəvəti məmnunluqla qəbul edən Prezident İlham Əliyev öz növbəsində Almaniya Kanslerini Azərbaycana səfərə dəvət edib. Fridrix Merts də dəvəti məmnunluqla qəbul edib.

# Regionun iqtisadi güc mərkəzi

## “Gnomon Wise”: Azərbaycan Cənubi Qafqazın lideridir

Beynəlxalq tədqiqat institu olan “Gnomon Wise”in məlumatına görə, 2025-ci ilin yanvar-oktyabr aylarında Cənubi Qafqaz ölkələrinin ticarət dövriyyəsi 8,8 faiz azalaraq 76,467 milyard dollar təşkil edib. 2024-cü ilin eyni dövründə bu göstərici 83,887 milyard dollar olub. Qeyd edilən dövrdə regionun ticarət dövriyyəsində idxalın payı 43,467 milyard dollar, ixracın ümumi dəyəri isə təxminən 33 milyard dollar təşkil edib. Toplam ticarət balansında digər 2 ölkənin payı azalsa da, Azərbaycanın əmtəə dövriyyəsində payı artaraq 51,4 faiz təşkil edib. Gürcüstanın payı 26,9 faiz, Ermənistanın payı isə 21,7 faiz səviyyəsindədir.

Göründüyü kimi, Azərbaycan Cənubi Qafqaz regionunun ticarət flaqmanı kimi tərəfdaş olduğu dövlətlərlə iqtisadi-ticari dövriyyəni dayanıqlı şəkildə qoruyub saxlamaqdadır.

“Gnomon Wise”in hesabatına görə, Cənubi Qafqaz ölkələri - Azərbaycan, Ermənistan və Gürcüstan kiçik və açıq iqtisadiyyatlara malikdir və qlobal bazarlarla inteqrasiya olunub. Regionda xarici ticarət ölkələrin iqtisadi artımına mühüm töhfə verir və ticarət əlaqələrinin gücləndirilməsi regionun iqtisadi sabitliyi üçün əhəmiyyətlidir.

### Cənubi Qafqaz iqtisadiyyatının 65 faizi ölkəmizə məxsusdur

Azərbaycanın son illərdə sürətli inkişafı onun beynəlxalq aləmdə nüfuzunun artmasına, regionun əsas siyasi aktoruna çevrilməsinə səbəb olmaqdadır. Bu dayanıqlı və möhkəm güc arxitekturası, eyni zamanda dövlətimizin yürütdüyü güclü siyasi iradənin və geridönməz qətiyyətin nümunəsidir. Respublikamızın regionda güc mərkəzinə çevrilməsini şərtləndirən başlıca amillərdən biri iqtisadi müstəqilliyin möhkəmlənməsi və ölkəmizin strateji maliyyə qüdrətinin artmasıdır.

Son 22 il ərzində Azərbaycan iqtisadiyyatı nominal ifadədə 14,8 dəfə böyüyərək əsas iqtisadi göstərici olan ÜDM-in həcmi 134 milyard manata çatıb. Dövlət büdcəsinin gəlir və xərcləri 32 dəfə artaraq 1,2 milyard manatdan 39,9 milyard manata yüksəlib. Xarici valyuta ehtiyatları 48 dəfədən çox artaraq 73 milyard dollara çatıb. Azərbaycanın xarici ticarət əlaqələri qurduğu ölkələrin sayı 124-dən 188-dək və ya 51,6 faiz artıb və xarici ticarət dövriyyəsi 5,2 milyard dollardan 56 milyard dollara yüksəlib.

Azərbaycan hazırda Cənubi Qafqaz iqtisadiyyatının lokomotividir. Bu regionda Azərbaycan ÜDM-in həcminə görə, liderdir. Ölkəmizdə ÜDM 72,5 milyard dollar, Ermənistanda 16,2 milyard dollar, Gürcüstanda isə 19,3 milyard dollar təşkil edir. Cənubi Qafqaz iqtisadiyyatının ümumi həcmi 108 milyard dollar təşkil edir ki, onun 65 faizindən çoxu Azərbaycanın payına düşür.

Yaxud maliyyə-büdcə ehtiyatlarının böyük əksəriyyəti Azərbaycanın sərəncamındadır. 2025-ci il üzrə Cənubi Qafqaz ölkələrinin birlikdə büdcə xərcləri 40 milyard dollar təşkil edir ki, onun 23,5 milyard dolları və ya 61 faizi Azərbaycanın, qalan 39 faizi digər 2 ölkənin payına düşür. Bu isə bölgədəki iqtisadi-fiskal mənbələrin əsas mərkəzi kimi Azərbaycanın xüsusi üstün paya malik olduğunu göstərir.

### Bölgəyə yönəlmiş investisiyaların 80 faizi Azərbaycanın payına düşür

Cənubi Qafqazın starteji valyuta ehtiyatlarının ümumi həcmi hazırda 90 milyard dollar təşkil edir. Ermənistanın strateji rezervləri 6 milyard, Gürcüstanın rezervləri 11 milyard, Azərbaycanın strateji ehtiyatları isə 73 milyard dollardır. Cəmi 90 milyard ehtiyatların 80 faizi Azərbaycanın payına düşür.

Cənubi Qafqaz iqtisadiyyatına yatırılmış cəmi investisiyaların həcmi 400 milyard dollardır, onun 310 milyard dolları Azrbaycanın payına düşür. Yəni xarici investorlar Cənubi Qafqazda kapital qoyuluşlarının 80 faizdən çoxunu Azərbaycana etibar edib.

Beləliklə, ötən illər ərzində əldə olunmuş bu mühüm iqtisadi faktorlar ölkəmizin iqtisadi müstəqilliyini möhkəmləndirməklə tam müstəqil siyasət yürüdülməsini də şərtləndirib. Nəticədə Azərbaycanın iqtisadi-siyasi gücünün möhkəmlənməsi bölgənin ən inkişaf etmiş və dayanıqlı ölkəsinə çevrilməsini təmin edib.




### Pan-Avropa enerji təchizatçısı

Azərbaycan həm də bölgənin enerji mənbəyi və qlobal təchizatçıdır. Bakı-Tbilisi - Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələrini icra edən,TANAP, TAP kəmərlərini reallaşdıran Azərbaycan Cənub Qaz Dəhlizinin enerji koridorunu yaradıb. 2020-ci ilə kimi Avropa bazarında mühüm neft təchizatçısı kimi etibarlı tərəfdaşa çevrilmiş respublikamız son 4 ildə Cənub Qaz Dəhlizinin sonuncu hissəsini - Transadriatik qaz kəmərini (TAP) istifadəyə verməklə faktiki olaraq Avropa İttifaqına qaz təminatında da koalisiyanın aparıcı üzvlərindən birinə çevrildi.

Enerjinin şaxələndirilməsi Avropa regionun 10-dan çox ölkəsinin qaz təchizatının təmin edilməsi və yanacağın illik həcminin artmasına təsir göstərməklə respublikamızın coğrafi mövqeyini də artırmış olub. Belə ki, 2021-ci ildə Azərbaycan Avropa regionuna 8 milyard kubmetr, 2022-ci ildə 11 milyard kubmetr, 2023-cü ildə 12 milyard, 2024-cü ildə 13 milyard kubmetr qaz ixrac edilib ki, bu da Azərbaycanı ən etibarlı tərəfdaş kimi Aİ-də etimadını yüksəldib. Proqnozlara əsasən, 2025-2030-cu illərdə ölkəmizin qaz istehdsalı 40 faiz artacaq və Avropaya qaz nəql edən TAP kəmərinin illik gücünün 20 milyard kubmetrədək artmasına səbəb olacaq.

### Regionun nəqliyyat arteriyalarının müəllifi

Regionun enerji-nəqliyyat və tranzit qovşaqlarının sahibi də Azərbaycandır. Asiya və Avropa arasında körpü rolunu oynayan Azərbaycan çoxşəbəkəli regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin əsas arteriyaları olan Şimal-Cənub, Şərq-Qərb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Yeni İpək Yolunun Orta dəhlizlərindən biri Azərbaycandır. Gürcüstanın da təmin olunduğu bölgədəki bütün nəqliyyat arteriyalarının əsas müəllifi və mərkəzi qovşağı ölkəmizə məxsusdur.

Hazırda Yeni İpək Yolu magistralının əsas həlqəsinə çevrilən Zəngəzur dəhlizinin reallaşması ilə Azərbaycan etibarlı tranzit ölkə kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa yeni imza atmaqdadır. Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini təmin edəcək ən qısa dəhlizdir. Bu dəhlizin istifadəyə verilməsi Azərbaycan üzərindən il ərzində təxminən 35 milyon ton yükün daşınmasına imkan verə bilər. Bu isə regionda ən nəhəng translogistika qovşağının da Azərbaycanda yaradılmasını şərtləndirəcək. Zəngəzur dəhlizinin “Bir kəmər, bir yol” layihəsinə reinteqrasiyası 30-dan artıq ölkənin mənafeyinə xidmət etməklə həm də bölgədə və yaxın region coğrafiyasında yeni geoiqtisadi və geosiyasi meyarları meydana çıxaracaq. Məhz bu iqtisadi-siyasi reallıqlar fonunda Azərbaycan Cənubi Qafqazın ən güclü aktoru olaraq Qərbin və Şərqin maraq kəsişməsində özünün tarazlı siyasi iradəsini nümayiş etdirir.

Beləliklə, Azərbaycan Cənubi Qafqazda həm siyasi, həm iqtisadi güc mərkəzi, həm də güclü orduya sahib qüdrətli ölkə kimi dünya birliyində layiqli yerini və mövqeyini möhkəmləndirməkdədir.

*ELBRUS CƏFƏRLİ*

# Azərbaycanla Türkiyə hər zaman birlikdədir!

## Qardaşlıq və birlik ruhu ölkələrimizi təkcə regionda deyil, bütün dünyada nümunəvi dövlətlərdən birinə çevirib

Azərbaycan və Türkiyə əsrlər boyu ortaq tarix, mədəniyyət, dil və dini dəyərlər əsasında formalaşmış möhkəm qardaşlıq telləri ilə bir-birinə bağlı olan iki dost və qardaş ölkədir. "Bir millət, iki dövlət" prinsipi bu münasibətlərin təməlini təşkil edərək, təkcə regionda deyil, bütün dünyada dövlətlərarası əməkdaşlığın, səmimi tərəfdaşlığın və qarşılıqlı dəstəyin bariz nümunəsinə çevrilib. Hər iki xalq ortaq soy-kökə, bənzər adət-ənənələrə və milli-mənəvi irsə malik olmaqla yanaşı, zamanın sınaqlarından çıxaraq dostluq və qardaşlıq münasibətlərini bu gün də eyni sədaqətlə yaşatmaqda davam edir.

### XİN başçıları nələri müzakirə edib?

Bu səmimi, qırılmaz əlaqələr iki ölkənin siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə sıx əməkdaşlığı ilə yanaşı, ortaq mədəni dəyərlərin qorunması və inkişaf etdirilməsi istiqamətində də özünü göstərir. Azərbaycan və Türkiyə geosiyasi baxımdan mühüm regionlarda yerləşərək, regional və qlobal təhlükəsizlik, enerji layihələri və iqtisadi əməkdaşlıq sahələrində strateji tərəfdaş kimi çıxış edir. Eyni zamanda, hər iki ölkə Türk dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsində fəal rol oynayır, ortaq layihələr və təşəbbüslərlə bu birliyin gələcək inkişafına töhfə verir. Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün təkcə dövlətlərarası əməkdaşlıq müstəvisində deyil, xalqlar arasında da səmimi dostluq və qarşılıqlı etimada əsaslanır. Xüsusən də hər iki ölkənin humanitar fəlakətlər zamanı bir-birinə dəstəyi, qarşılıqlı yardımı və mənəvi həmrəyliyi bu münasibətlərin nə qədər dərin və sarsılmaz olduğunu bir daha sübut edir. Məhz bu qardaşlıq və birlik ruhu Azərbaycan ilə Türkiyəni təkcə regionda deyil, bütün dünyada nümunəvi dövlətlərdən birinə çevirib.

Regionun güclü və nüfuzlu dövlətləri olan Azərbaycanla Türkiyə daim müxtəlif səviyyələrdə təmasdadır və ikitərəfli, o cümlədən regional proseslərlə bağlı koordinasiyalı şəkildə əməkdaşlıq edirlər. Bu baxımdan, dekabrın 3-də ATƏT-in Nazirlər Şurasının 32-ci iclası çərçivəsində Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Türkiyənin xarici işlər naziri Hakan Fidanın görüşü xüsusi vurğulanmalıdır. XİN-dən verilən məlumata görə, görüşdə Azərbaycanla Türkiyə arasında möhkəm dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə inkişafı məsələləri, habelə bölgədə mövcud təhlükəsizlik vəziyyəti, regional sülh və sabitliyin təmin olunması istiqamətində görülən tədbirlər müzakirə olunub. Bu çərçivədə iki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə davam etməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər iqtisadiyyat və ticarət, energetika və nəqliyyat-kommunikasiya layihələri, o cümlədən regional bağlantı təşəbbüslərinin reallaşdırılması ilə bağlı perspektivləri nəzərdən keçiriblər. Nazirlər beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini qeyd edərək, Azərbaycan və Türkiyənin bir-birini qarşılıqlı şəkildə dəstəkləməsinin regional əməkdaşlığa müsbət töhfə verdiyini vurğulayıblar. XİN başçıları, həmçinin digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.



### Şuşa Bəyannaməsi münasibətlərimizin zirvəsini təşkil edir

Qeyd edək ki, ölkələrimiz arasında enerji, nəqliyyat və ticarət sahələrində qurulan əlaqələr də münasibətlərin əsas sütunlarından biri olub. 2000-ci illərdə həyata keçirilən iri enerji və infrastruktur layihələri - xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri Azərbaycanın Avropaya enerji ixracını təmin etməklə yanaşı, Türkiyəni regionda mühüm enerji-tranzit mərkəzinə çevirib. Bu əməkdaşlıq hər iki ölkənin iqtisadi dayanıqlığını və regional mövqeyini gücləndirib. Bununla yanaşı, hərbi sahədə də tərəfdaşlıq möhkəm təməl üzərində qurulub. Türkiyə Azərbaycanın müdafiə potensialının artırılması üçün hərbi təlimlər və texniki dəstək verərək, hərbi əməkdaşlığı daha yüksək səviyyəyə çatdırıb. Xüsusilə 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı dəstəkləməsi iki ölkə arasındakı siyasi və hərbi münasibətləri daha da möhkəmləndirib. 2021-ci ilin iyun ayında prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış müttəfiqlik haqqında Şuşa Bəyannaməsi isə münasibətlərimizin zirvəsini təşkil edir.

### Beynəlxalq platformalarda qarşılıqlı dəstək

Azərbaycanla Türkiyə arasında hərbi və təhlükəsizlik sahəsində qurulan əməkdaşlıq yalnız iki ölkənin milli maraqları çərçivəsində deyil, bütövlükdə, regionun sabitliyinin, təhlükəsizliyinin təmin olunması baxımından da xüsusi önəm daşıyır. Bu tərəfdaşlıq əsrlər boyu qardaş xalqlarımızın ortaq iradəsinin və siyasi uzaqgörənliyinin nəticəsi kimi müasir dövrdə yeni məzmun və mahiyyət qazanıb. İki dövlət müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, ATƏT, NATO və İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlıq edərək, regional və qlobal təhlükəsizlik təşəbbüslərində birgə mövqe sərgiləyir. Xüsusilə Azərbaycanın 30 il davam edən işğala son qoyduğu İkinci Qarabağ müharibəsi dövründə Türkiyənin göstərdiyi birmənalı siyasi dəstək bu əlaqələrin sarsılmazlığını və qardaşlığın gücünü bütün dünyaya nümayiş etdirdi. Bununla yanaşı, hərbi əməkdaşlığın praktiki istiqaməti də daim genişlənməkdədir. Ölkəmizin müxtəlif bölgələrində keçirilən hərbi təlimlərdə Azərbaycan və Türkiyənin Silahlı Qüvvələrinin birgə iştirakı hər iki ordunun döyüş hazırlığının artırılmasına, koordinasiyanın gücləndirilməsinə və regional təhlükəsizliyin təmininə mühüm töhfə verir. Bu təlimlər yalnız ikitərəfli səviyyədə deyil, həm də NATO ilə əməkdaşlıq çərçivəsində aparılan işlərin gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

Bundan əlavə, müdafiə sənayesi sahəsində birgə layihələr, müasir silah sistemlərinin tədarükü və texniki təchizatın təkmilləşdirilməsi istiqamətində atılan addımlar qardaş ölkələrimizin müdafiə qabiliyyətinin daha da artırılmasına xidmət edir. Bu əməkdaşlıq Azərbaycanın və Türkiyənin regional təhlükəsizlik məsələlərindəki həmrəyliyini gücləndirməklə yanaşı, eyni zamanda, Cənubi Qafqaz və Orta Asiya regionlarında sülhün, sabitliyin təmin olunmasında mühüm rol oynayır.

Bütövlükdə, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, o cümlədən Yaxın Şərqdə artan gərginlik, xüsusilə Suriyada yaranmış vəziyyət iki qardaş ölkənin diqqət mərkəzindədir. Dövlətlərimiz regionumuzda sülhün və sabitliyin təmin olunması üçün birgə diplomatik fəaliyyət həyata keçirir. Bu baxımdan, iki ölkənin XİN başçılarının görüşü zamanı aparılan müzakirələr böyük əhəmiyyət kəsb edir.

*Nardar BAYRAMLI*

# Türkiyə Naxçıvanda iqtisadi imkanlarını gücləndirir

## 2-ci Azərbaycan-Türkiyə Regional İqtisadi Forumunda yeni hədəflər müəyyənləşdirilib




Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Türkiyə Palatalar və Birjalar Birliyi, Qars Ticarət və Sənaye Palatası, "Cahan Holding" və "Marsol Group"un dəstəyi ilə Naxçıvanda 2-ci Azərbaycan-Türkiyə Regional İqtisadi Forumu keçirilib. Muxtar respublikanın, Türkiyənin Qars, İğdır, Ərdahan və Ərzurum vilayətlərinin dövlət və özəl sektor nümayəndələrinin iştirak etdiyi forumda birgə əməkdaşlığın mövcud vəziyyəti və qarşıda duran yeni hədəflər barədə faydalı müzakirələr aparılıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bildirib ki, tədbirin keçirilməsinin məqsədi Azərbaycan və Türkiyə regionları arasında işgüzar əlaqələrin inkişaf etdirilməsi, bu sahədə mövcud potensialın və biznes əməkdaşlığı üçün imkanların səfərbər olunması, eləcə də Naxçıvan Muxtar Respublikasının biznes və investisiya potensialının artırılmasında türk iş adamlarının rolunun gücləndirilməsi, bölgələrarası ikitərəfli iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsidir.

### Zəngəzur dəhlizinin açılması bölgədə yeni körpü yaradacaq

C.Cəlilov bildirib ki, Prezident İlham Əliyev Naxçıvana xüsusi diqqət ayırır. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" icra olunur. Növbəti ildən başlayaraq Azad İqtisadi Zona elan edilən muxtar respublikada sahibkarlar 10 il müddətinə gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən, eləcə də gömrük rüsumlarından azad ediləcək. Bu islahatlar yerli iş adamları ilə yanaşı, türkiyəli investorlar üçün də mühüm əhəmiyyət kəsb edir və onlar da bu, əlverişli biznes mühitindən yararlana biləcəklər.

Eyni zamanda, regionun logistika qapılarından biri olan Naxçıvanın yeni nəqliyyat şəbəkələrinə bağlanması istiqamətində qətiyyətli addımlar atılır, bölgədə sülh prosesinin başlanması və Zəngəzur dəhlizinin reallaşması istiqamətində gerçəkləşən qərarlar Naxçıvanı mühüm logistika qovşağı kimi bu nəqliyyat habına birləşdirəcək. Muxtar respublika Türk dünyasının və regionun mühüm coğrafi mərkəzlərindən birinə, ticarət, logistika və turizm mərkəzinə çevriləcək. Bu iqtisadi əməkdaşlıq və rifah dividendlərindən isə ən çox faydalananlardan biri qardaş Türkiyə olacaq.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev bildirib ki, Azərbaycan-Türkiyə Regional İqtisadi Forumu platforması iki ölkənin iş adamları arasında sərhədyanı ticarətin, investisiya qoyuluşu və biznes

### Türkiyə muxtar respublikanın xarici ticarət dövriyyəsində ilk yerdədir

əməkdaşlığının təşviqi və daha da inkişaf etdirilməsi məqsədilə yaradılıb. İlk forum 2025-ci ilin iyun ayında Türkiyənin Qars şəhərində keçirilib. Növbəti forumun təşkili qarşılıqlı ticarət və iqtisadi əlaqələrin daha dərindən inkişafı baxımından yeni fürsətlər açacaq.

K.Hüseynəliyev vurğulayıb ki, Türkiyə ilə Naxçıvan arasında ticari dövriyyənin dinamikası son illərdə artmaqdadır. Bu dinamika 2025-ci ilin 10 ayı ərzində də davam edib və qarşılıqlı ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 9,5 faiz artaraq 47,8 milyon dollar təşkil edib. Bu dövrdə muxtar respublikadan Türkiyəyə ixracın həcmi 24,8 faiz artıb. Naxçıvandan Türkiyəyə mineral sular, tütün məmulatları, günəbaxan tumu, meyvə qurusu, plastik və travertin daş məhsullarının ixracı həyata keçirilib, Türkiyədən Naxçıvana isə ərzaq və kənd təsərrüfatı məhsulları, məişət-elektrik əşyaları, mebel, tekstil məhsulları, müxtəlif texnikalar göndərilib. Hazırda Türkiyə Naxçıvanın xarici ticarət dövriyyəsində ilk yeri tutaraq 46,5 faizlik paya malikdir. Eyni zamanda, Naxçıvanda fəaliyyət göstərən xarici kapitallı şirkətlərin böyük hissəsini də türk şirkətləri təşkil edir.



ASK-ın vitse-prezidenti, Azərbaycan-Türkiyə Ticarət və Sənaye Palatasının həmsədri Vüqar Abbasov bildirib ki, ölkələrimiz arasında siyasi-iqtisadi əlaqələrin və strateji tərəfdaşlığın inkişafı Naxçıvanla Türkiyənin bölgələrinin birgə iqtisadi bağlantılarının artmasına da xüsusi töhfələr verir. Tərəflər arasında əməkdaşlıq, biznes və investisiya qoyuluşu üçün imkanlar ildən-ilə genişlənir.

### KOBİA biznes missiyaları təşkil etmək niyyətindədir

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov qeyd edib ki, Naxçıvan və Türkiyənin biznes sektoru arasında logistika, sərhədyanı ticarət, investisiya və KOB-ların dəstəklənməsi istiqamətində atılan qarşılıqlı addımlar bölgədə iqtisadi dinamikanın güclənməsinə və yeni tərəfdaşlıq imkanlarının yaranmasına töhfə verir. Xüsusilə də Naxçıvanın regional əməkdaşlıq baxımından yaratdığı imkanlar biznes dairələri üçün böyük perspektivlər açır. Həmçinin ticarət, xüsusilə sərhədyanı ticarət, sənaye, turizm, nəqliyyat-logistika, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq üçün mövcud olan geniş potensialın səfərbər edilməsi biznesin bu imkanlardan daha səmərəli istifadəsini təşviq edir. Qarşılıqlı təmasların möhkəmlənməsində mühüm rol oynayan KOBİA Türkiyədə fəaliyyət göstərən müvafiq qurumlarla əməkdaşlığı daha da artırmaqla, Naxçıvanda biznes missiyalarının reallaşdırılmasına töhfə vermək niyyətindədir.

### Ticarət və gömrük güzəştlərinin tətbiqi nəzərdə tutulur

Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya isə vurğulayıb ki, bu cür forumların keçirilməsi ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafına, eləcə də Naxçıvanla ortaq layihələrin icrası regionun davamlı iqtisadi rifahına mühüm töhfə verəcək. Türkiyənin yaxın bölgələrinin Naxçıvanla ticarət əlaqələrinin ən üst səviyyəyə çıxmasında maraqlı olduqlarını bildirən A.Kaya Zəngəzur dəhlizinin reallaşmasının Naxçıvanla yanaşı, Türkiyənin İğdır, Qars, Ağrı və Ərdahan vilayətlərinin də inkişafında əsaslı rol oynayacağını diqqətə çatdırıb, qarşılıqlı işbirliklərinin fayda verəcəyini vurğulayıb.

Forumda tərəflər sərhədyanı ticarət və gömrük güzəştlərinin tətbiqi istiqamətlərində perspektiv imkanları dəyərləndirərək ticarət disbalansının aradan qaldırılması, sərhədkeçmə prosedurlarının daha da asanlaşdırılması və digər məsələlər barədə təkliflərlə çıxış edib. Türk iş adamları səfər çərçivəsində Naxçıvanda fəaliyyət göstərən bir sıra müəssisələrin fəaliyyəti ilə də tanış olublar.

*E.CƏFƏRLİ*



# Sülh, yoxsa hakimiyyət...

## 13 sənədin ictimailəşdirilməsində məqsəd nədir?

Nəhayət, Ermənistanın Baş naziri Nikol Paşinyan xeyli müddət bundan əvvəl gündəmə gətirdiyi keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı zamanında aparılan danışıqlara dair sənədləri yayacağı barədə vədinə əməl edərək onları ictimailəşdirdi. Belə ki, bugünlərdə Ermənistan Nazirlər Kabinetinin saytında indiyədək təfsilatları geniş açıqlanmayan 13 sənəd yerləşdirilib. Sənədlərdə 2011-ci ildə Kazanda müzakirə edilən layihə, vasitəçilərin 2019-cu ildən etdikləri təkliflər, üçüncü prezident Serj Sarkisyanın 2016-cı ilin avqust ayından Rusiya prezidenti Vladimir Putinə yazdığı məktubu, ərazi mübadiləsi, Madrid, Kazan prinsipləri və bir sıra digər materiallar əksini tapıb.

Sənədlərin ictimailəşdirilməsinin qonşu ölkədə böyük rezonans doğuracağı gözlənilən idi. Sənədlər son günlərdə Ermənistanın müxtəlif çevrələrində, mətbuatda aparılan müzakirələrin mərkəzində dayanır. Sənədlərdə nələr əks olunub? Onları ictimailəşdirmək N.Paşinyana nə üçün lazımdır? Daha önəmli sual isə belədir? Məlum sənədlərin ictimailəşdirilməsi indiki həssas məqamda sülh prosesinə necə təsir göstərə bilər?

### Niyə məhz indi?

Söhbət keçmiş Dağlıq Qarabağ münaqişəsindən gedirsə, indi Ermənistan hakimiyyətinin əsas məsuliyyəti avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmaların praktiki müstəvidə reallaşmasını sürətləndirməyə hesablanan addımlar atmaq olmalıdır. Ağ Evdə xarici işlər nazirlərinin parafladıqları saziş və verilən birgə Bəyanatla regionda 44 günlük müharibədən və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatından sonra yaranan yeni reallıq Prezident Donald Trampın şahidliyi ilə təsdiqlənib. Həmçinin Vaşinqton razılaşmalarına uyğun olaraq zamanında keçmiş Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məqsədilə yaradılmış, lakin 3 həmsədr dövlətin regional maraqlarının girovuna çevrilərək səmərəli fəaliyyət göstərməmiş ATƏT-in Minsk qrupu ləğv olunub. Bütün bunlar o deməkdir ki, dünya reallığı qəbul edir, artıq Qarabağ mövzusu beynəlxalq gündəlikdən tamam çıxarılıb. Həmçinin Ermənistan rəhbərliyinin özü də bir neçə dəfə Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq şəkildə bəyan edib.

Bu mənzərə fonunda əvvəlki dönəmdə keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müxtəlif məkanlarda aparılan danışıqların sülh prosesinə hansısa bir töhfə verəcəyini düşünmək sadəlövhlük olardı. Məlum sənədlər keçmişdir və bugünkü proseslər üçün hansısa bir önəm daşımır. Aydın məsələdir ki, bu reallığı N.Paşinyanın özü də anlamamış deyil. Beləliklə, sual yaranır: Bəs Ermənistanın Baş naziri sənədlərin ictimailəşdirilməsinə niyə məhz indi lüzum görüb? Sualın cavabı birmənalıdır: N.Paşinyan daxili ictimai-siyasi vəziyyəti nəzərə almaqla bu zəruri gedişi edib.

Məlumdur ki, hazırda Ermənistan gələn ilin yayında keçiriləcək parlament seçkilərinə hazırlaşır. N.Paşinyan da bugünlərdə bir daha bəyan etdi ki, onun özü də seçkilərə qatılacaq və hazırda komandasının hansı üzvləri ilə seçkilərə gedəcəyini müəyyənləşdirmək əsas qayğılarındandır. Baş nazirin məlum sənədləri ictimailəşdirməsini də onun seçki hazırlıqlarının tərkib hissəsi kimi dəyərləndirə bilərik. Ölkədə seçkiqabağı ictimai-siyasi vəziyyət çox ziddiyyətlidir. Hakim komandaya qarşı bir neçə daxili cəbhə açılıb. N.Paşinyan eyni vaxtda revanşistlərin, yeni müxalifətin, sabiq prezidentlərdən ibarət "köhnə qvardiya"nın, kilsənin müqavimətini neytrallaşdırmalıdır. O bunu müəyyən dərəcədə bacarır. Yeni müxalifətin lideri Karapetyan xeyli müddətdir ki, həbsə alınıb. Revanşistləri susdurmaq üçün xalq yeni itki riskləri ilə qorxudulur. Kilsənin cəmiyyətə təsir imkanları da xeyli dərəcədə zəiflədilib. N.Paşinyan uzun müddət apardığı təbliğat nəticəsində kilsə mifini dağıtmağa nail olub və hazırda kilsə andını pozmaqda ittiham olunan baş keşişin həbsi də gündəmdədir. İndiki məqamda N.Paşinyan "köhnə qvardiya"nı hakimiyyəti üçün ən böyük təhlükələrdən biri kimi görür. Çünki bu qüvvələr həm də xarici güclərin Ermənistanda uzantılarıdırlar. Bəzi güclər Ermənistana özlərinin regional maraqlarını təmin etmək üçün bir layihə kimi yanaşır və bu layihənin uğurlu olması üçün burada marionet siyasi hakimiyyət formalaşdırmağa çalışırlar. Tarixən həmişə belə olub. Bu baxımdan gələcək seçkilər də istisna deyil. Elə indidən bəllidir ki, seçkilər yalnız cəmiyyətin iradəsini ifadə etməyəcək, nəticələrdə xarici güclərin təsirləri də mütləq şəkildə əks olunacaq. 2018-ci illə müqayisədə cəmiyyətdə nüfuzunun əhəmiyyətli dərəcədə azaldığının fərqində olan N.Paşinyan bunu "köhnə qvardiya"nı nüfuzdan salmaqla kompensasiya etməyə çalışır. Zamanında Qarabağ kartından istifadə etməklə Ermənistanda uzun müddət hakimiyyətlərini qoruyan sabiqlər revanşı da məhz bu mövzudan "bəhrələnməklə" etmək istəyirlər. Onlar Baş naziri Qarabağı satmaqda, müharibəni uduzmaqda, Azərbaycan və Türkiyə ilə uyğun olmayan şərtlər əsasında razılaşmalara getməkdə ittiham edirlər. N.Paşinyan yaxşı anlayır ki, bu ittihamlar uzun müddət "Böyük Ermənistan" xülyasının əsirliyində qalmış cəmiyyətin müəyyən kəsimlərini ondan üz döndərməyə sövq edə bilər. Baş nazir real görünən bu təhlükəni sovuşdurmağın ən optimal yolunu ictimai diqqəti sabiqlərin özlərinin iştirakı ilə aparılan danışıqlara çəkməkdə görüb. N.Paşinyan fərqindədir ki, uzun müddət Ermənistanda hakimiyyətdə olmuş Petrosyan, Sarkisyan və Koçaryanın "qəhrəmanlığı" həmin sənədlərdə bütün cəhətləri ilə aydın şəkildə görünür. Baş nazir sənədləri ictimailəşdirməklə xalqa sanki demək istəyir ki, onları siz də yaxından tanıyın. Tanıyın ki, onlar sizi necə aldadıblar, tanıyın ki, onlar sizi aldatmaqla hakimiyyətlərinin ömrünü uzadıblar, talançılıqla məşğul olmalarına daha münbit zəmin yaradıblar.

### Onillikləri əhatə edən danışıqlar prosesinin bəzi məqamları

Açıqlanmış 13 sənəd 1992-2020-ci illər arasında beynəlxalq təşkilatçıların və vasitəçi dövlətlərin iştirakı ilə aparılmış danışıqları və müzakirə edilmiş həll variantlarını əhatə edir. Əlbəttə, təklif olunan həll variantları müxtəlif adlar altında təqdim olunsa da, onlar beynəlxalq hüququn fundamental prinsiplərindən çox uzaq olub. Bunun da əsas səbəbi o idi ki, müxtəlif həll variantları təklif edən Minsk qrupunun həmsədr dövlətləri bir tərəfdən özlərinin regional maraqlarını təmin etməyə çalışır, digər tərəfdən isə açıq-aşkar selektiv yanaşma ortaya qoyurdular. Regional maraqlar həmsədrləri ayıran, Ermənistana rəğbət isə onları birləşdirən cəhət idi. Məhz buna görə də BMT Təhlükəsizlik Şurasının Ermənistanın işğal etdiyi ərazilərdən qeyd-şərtsiz çıxmasını tələb edən 4 qətnaməsi onilliklər ərzində yerinə yetirilmədi və Azərbaycan tarixi ədaləti, beynəlxalq hüququ özü təmin etmək məcburiyyətində qaldı. Yayılan sənədlərin ayrı-ayrı məqamlarından da göründüyü kimi, Ermənistanın danışıqlar prosesində iştirak edən liderləri isə marionet fiqurlar olublaar. Ermənistanın bugünkü acınacaqlı durumunun, müharibə faciələrinin, gənclərin həyatlarını itirmələrinin məsuliyyəti həm də onların üzərinə düşür.

Beləliklə, yayımlanan sənədlərin bəzi məqamlarına diqqət yetirək. Açıqlanan sənədlərdən birini "Koçaryanın Rambuyedə tualet sərgüzəştləri" adı altında təqdim etmək daha doğru olardı. 2006-cı il fevralın 10-da Fransanın Rambuye şəhərində böyük ümidlərlə başlayan danışıqlar o zamankı Ermənistan prezidenti Robert Koçaryanla Azərbaycan Prezidenti İlham Əliyev arasında baş tutub. Paris yaxınlığındakı Rambuye şəhərində eyniadlı qəsrdə keçirilən danışıqlar Robert Koçaryanın prosesi yarımçıq qoyması və biabırçı qaçışı ilə yaddaşlarda qalıb. Həmin danışıqlar prosesi 2006-cı il fevralın 10-da hər iki prezidentin ayrı-ayrılıqda Fransanın sabiq prezidenti Jak Şirakla Parisdə, Yelisey Sarayında təqribən 45 dəqiqəlik görüşü ilə başlamışdı. Daha sonra İlham Əliyev və Robert Koçaryan arasında 2 dəfə fevralın 10-da 2 saata qədər, fevralın 11-də isə 20 dəqiqəlik təkbətək görüş keçirilib. Məhz 11 fevral görüşü zamanı Robert Koçaryan ayaqyoluna getmək adı ilə ikitərəfli danışıqları yarımçıq saxlayıb. Bundan sonra isə heç bir xəbər vermədən Rambuye qəsrini tərk edərək Parisdən İrəvana uçub. Sonradan o bunu həmin vaxt müdafiə naziri postunu tutan Serj Sarkisyanın qayınatasının ölümü ilə əlaqələndirsə də, əslində, həmin addım Dağlıq Qarabağ münaqişəsinin həlli üçün təklif edilən şərtləri qəbul etməmə qorxusu ilə bağlı idi. Danışıqlar prosesində küncə sıxışdırılan Koçaryan başqa bir ad altında da masadan ayrıla bilərdi. Lakin görünür o burada da öz təbiətinə uyğun davranıb və xalqını, ölkəsini rüsvay etməkdən belə çəkinməyib.

Danışıqlar prosesində həmçinin uzun müddət ərazi mübadiləsi variantı gündəmdə olub. Açıqlanan sənədlərə görə, həmin dövrün təklifləri çərçivəsində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin bütün ərazisi, Şuşa və Laçın rayonları tam şəkildə Ermənistan Respublikasına verilirdi. Bunun əvəzində Meğri rayonu Azərbaycanın nəzarətinə keçirdi. Paralel olaraq Ağdamdan Zəngilana, Qubadlıdan Kəlbəcərə, həmçinin Qazax və Şaumyan istiqamətinə qədər işğal altında saxlanılan bütün ərazilər Azərbaycana qaytarılırdı. Oxşar planı tanınmış amerikalı politoloq Pol Qobl da irəli sürmüşdü. Ona görə onu "Qobl planı" da adlandırırlar. Həmin plan 1999-cu il oktyabrın 27-də Ermənistan parlamentinin gülləbaran edilməsi ilə gündəmdən çıxdı. Çünki maraqlı güclər münaqişənin hər hansı bir formada həllini istəmirdilər. Hərçənd Bakı və İrəvan bu varianta rəsmi razılıq verməmişdilər.

Danışıqlar prosesində həmçinin Kazan prinsipləri gündəmdə olub. Bu prinsiplər 2011-ci ilin 24 iyun tarixində Rusiyanın həmin dövrdəki prezidenti Dmitri Medvedevin vasitəçiliyi ilə Kazanda təşkil edilən prezidentlərin görüşündə müzakirələrə çıxarılmışdı. Kazan danışıqlarına əsasən, əvvəlcə tənzimlənmənin əsas prinsipləri imzalanmalı, daha sonra isə Rusiya, ABŞ və Fransanın vasitəçiliyi ilə Ermənistan və Azərbaycan sülh sazişi üzərində işə başlanmalı idilər. İrəvana Dağlıq Qarabağ ətrafındakı rayonlardan işğalçı qoşunlarını çıxarmaq təklif olunurdu. Bu ərazilərə Füzuli, Ağdam, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları və Laçının 13 kəndi daxil idi. Həmin ərazilərdə təhlükəsizliyin qorunması beynəlxalq sülhməramlı qüvvələrə həvalə olunurdu. Laçın rayonunda Ermənistanla Qarabağı birləşdirən dəhliz yaradılması nəzərdə tutulurdu. Təbii ki, reallığa və beynəlxalq hüquqa əsaslanmayan Kazan prosesi də, necə deyərlər, ölü doğulmuş uşaq taleyi yaşadı...

### Hansı daha vacibdir?

Müşahidə edilən proseslər fonunda Ermənistan rəhbərliyinə belə bir sual ünvanlamaq yerinə düşər: Hansı daha vacibdir: Sülh, yoxsa hakimiyyət? Ermənistan hakimiyyətində təmsil olunanlar müxtəlif auditoriyalar qarşısında sülhün prioritetliyini önə çəkirlər. Lakin sənədlərin ictimailəşməsi ona dəlalət edir ki, Ermənistan siyasiləri üçün hakimiyyət sülhdən öndə dayanan məsələdir. Əgər sülh Ermənistan üçün daha prioritet məsələ olsa idi, hakimiyyətin qətiyyətli addımları da məhz bu istiqamətdə atılardı. Məsələn, Azərbaycanın da dəfələrlə bəyan etdiyi kimi, Vaşinqton razılaşmalarından sonra yekun sülh sazişinin imzalanması yolunda yeganə maneə Ermənistanın indiki qüvvədə olan konstitusiyasnın məzmunudur. Azərbaycan qalıcı sülh mövqeyindən çıxış edir. Bunun üçün isə yalnız sülh sazişini imzalamaq yetərli deyil. Qalıcı sülh üçün fundamental hüquqi baza olmalıdır. Ancaq Ermənistanın hazırkı konstitusiyası bu bazanı təmin etmir. Bu da onunla bağlıdır ki, Ermənistanın əsas qanununun preampula hissəsində açıq-aşkar respublikamıza qarşı ərazi iddialarının yer aldığı müddəalar var. Belə bir vəziyyətdə hansı məntiqlə qalıcı sülhdən danışmaq mümkündür? Buna görə də sülh təşəbbüsünün müəllifi olan Azərbaycan Ermənistan konstitusiyasının dəyişdirilməsini yekun sənədin imzalanması üçün əsas şərtlərdən biri kimi irəli sürüb. Ermənistan konstitusiya dəyişikliyinə getməklə sülh prosesinə nə qədər sadiq olduğunu ortaya qoyacaq. Bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər. Azərbaycanın istəyi Ermənistan rəhbərliyinə də yaxşı məlumdur. Ancaq konstitusiya dəyişiklikləri ilə bağlı proseslərin ləng getməsi ona dəlalət edir ki, Ermənistan üçün sülh heç də birinci dərəcəli prioritet deyil və məlum sənədlərin ictimailəşdirilməsi prosesləri bir qədər də uzada bilər.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan Könüllülərinin VIII Həmrəylik Forumu keçirilib

“Azərbaycan Könüllülük Həftəsi 2025” çərçivəsində Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının (AKTİ) təşkilatçılığı, Gənclər və İdman Nazirliyi, Ədliyyə Nazirliyi, “ASAN xidmət”in tərəfdaşlığı ilə Azərbaycan Könüllülərinin VIII Həmrəylik Forumu keçirilib.

Ölkənin 3 min 500-ə yaxın könüllüsünü bir araya gətirən forum “Konstitusiya və Suverenlik İli”nə həsr edilib.

Eyni zamanda, forum çərçivəsində ölkədə fəaliyyət göstərən könüllü təşkilatlarının sərgisi keçirilib. Sərgi zamanı könüllü təşkilatlarının fərdi stendlərində Azərbaycan könüllülərinin müxtəlif sahələrdə fəaliyyəti və nailiyyətləri ilə bağlı məlumatlar nümayiş olunub.

Forumda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin sektor müdiri Həmid Nəsibov, ədliyyə nazirinin müavini Toğrul Hüseynov, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev və Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev çıxış edərək ölkədəki könüllülük fəaliyyətinin təşviqi və inkişafı istiqamətində həyata keçirilən fəaliyyətlərdən bəhs ediblər.




Daha sonra Azərbaycan Könüllü Təşkilatları İttifaqının sədri Vüqar Əliyev tədbir iştirakçılarına İttifaqın 2025-ci il ərzində həyata keçirdiyi layihələr və fəaliyyəti barədə məlumat verib.

Daha sonra 44 günlük Vətən müharibəsində qazanılan qələbənin 5-ci ildönümünə həsr olunmuş videoçarx, müxtəlif sahələrdə könüllülərin fəaliyyətini əks etdirən videohesabatlar nümayiş etdirilib.

Forum çərçivəsində könüllülük fəaliyyətinin qiymətləndirilməsinə və gənclərin sosial məsuliyyətlərinin təşviqinə yönəlmiş önəmli addım olaraq 50-dən çox könüllü gənc 2025-ci il üzrə “İlin könüllüsü” mükafatı ilə təltif olunub.

Tədbirin yekununda xatirə fotosu çəkilib.

# Paşinyanın “sənəd açılışı”: Ermənistan siyasətində yeni qarşıdurma mərhələsi

Ermənistan baş naziri Nikol Paşinyanın Qarabağ danışıqları ilə bağlı arxiv sənədlərini ictimaiyyətə açıqlaması ölkənin siyasi həyatında yeni və gərgin bir dövrün başlanğıcını göstərir. Bu addım uzun illərdir münaqişə ətrafında formalaşdırılmış rəsmi narrativlərin sarsıdılmasına yönəlib və Ermənistan cəmiyyətində geniş rezonans doğurub. Sənədlərin məzmunu göstərir ki, əvvəlki hakimiyyətlərin danışıqlarda tutduğu xətt ictimaiyyətə təqdim olunan rəsmi versiyalarla tam üst-üstə düşməyib. Bu da Paşinyanın iddia etdiyi kimi, siyasi elitanın öz mövqelərini qorumaq üçün münaqişəni daxili siyasətdə alətə çevirdiyini bir daha gündəmə gətirir.

Bu sənədlərin açıqlanması həm də Ermənistan daxilində güc balansını dəyişmək məqsədi daşıyır. Keçmiş prezidentlərin komanda üzvləri materialların natamam olduğunu bildirərək hökuməti manipulyasiyada ittiham etsələr də, cəmiyyətin bir hissəsi açılan faktları əvvəlki hakimiyyətlərin danışıqlarda nə qədər qeyri-məhsuldar mövqe tutduğunun təsdiqi kimi qəbul edir. Münaqişənin həlli üçün illər boyu masada olmuş variantların reallaşdırılmaması, risklərin düzgün qiymətləndirilməməsi və “status-kvo”nun süni şəkildə uzadılması Ermənistanın sonrakı məğlubiyyətinə gətirib çıxaran əsas amillərdən biri kimi təqdim olunur. Bu çərçivədə Paşinyan yeni siyasi üstünlük əldə edərək rəqiblərini çətin vəziyyətə salmağa nail olur.

Eyni zamanda, sənədlərin yayımlanması Ermənistan siyasi sistemindəki dərin parçalanmanı daha da kəskinləşdirə bilər. Çünki bu proses təkcə keçmiş liderləri deyil, illərlə formalaşdırılmış milli kimlik və təhlükəsizlik yanaşmalarını da hədəfə alır. Paşinyan bu “mitsizləşdirmə” xəttini davam etdirərsə, ölkədə siyasi və ictimai qarşıdurmanın daha da artacağı istisna edilmir. Bununla belə, o, indiki mərhələdə öz bazasına mesaj verir ki, Ermənistan artıq köhnə yanaşmalarla idarə oluna bilməz və yeni siyasi kurs keçmiş illərin səhvlərinə görə cəmiyyət qarşısında açıq olmalıdır. Nəticədə, sənəd açıqlaması həm siyasi mübarizə alətinə çevrilir, həm də Ermənistanın regional reallıqları daha düzgün dərk etmək məcburiyyətində qaldığını göstərir.



*Alim Nəsirov*

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzi “2025 Imperial Springs” Beynəlxalq Forumunda iştirak edib

Noyabrın 30-dan dekabrın 4-dək Çinin Quançjou şəhərində keçirilən “Imperial Springs” Beynəlxalq Forumu qlobal əməkdaşlıq və həmrəyliyin gücləndirilməsinə həsr olunmuş yüksəksəviyyəli platforma kimi dünya liderlərini, siyasətçiləri, ekspertləri və beynəlxalq təşkilat nümayəndələrini bir araya gətirib. Forumda 30-dan çox ölkədən sabiq dövlət və hökumət başçıları, nüfuzlu şəxslər və tanınmış alimlər iştirak edib.

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində multilateralizm, qlobal təhlükəsizlik, iqtisadi transformasiyalar, iqlim və aşağı karbon inkişafı, texnoloji innovasiyalar, eləcə də 2030 gündəliyinin icrasına dair vacib məsələlər müzakirə olunub.

Forumun əsas tərəfdaşlarından olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tədbirdə yüksəksəviyyəli üzvlərlə geniş təmsil olunub.

Mərkəzi Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa, BMT Baş Assambleyasının 73-cü sessiyasının prezidenti Maria Fernanda Espinoza, Fortescue şirkətinin İdarə Heyətinin üzvü Jean Baderşnayder, Bosniya və Herseqovinanın sabiq Baş naziri, BMT-də Daimi Nümayəndəsi Zlatko Lagumdziya, Bosniya və Herseqovinanın sabiq Prezidenti Mladen İvaniç, Belçikanın sabiq Baş naziri İv Leterme, BMT Baş Assambleyasının 75-ci sessiyasının Prezidenti Volkan Bozkır, Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliev təmsil edib.




Mərkəzin nümayəndələri qlobal idarəetmənin yenidən tənzimlənməsi, iqtisadi dayanıqlıq, texnoloji təhlükəsizlik, yaşıl inkişaf və çoxtərəfli əməkdaşlıq mövzularında diskussiyalara töhfə veriblər.

Qeyd edək ki, mərkəz “Imperial Springs” Beynəlxalq Forumu ilə uzunmüddətli əməkdaşlığı çərçivəsində qlobal dialoqun təşviqi, sülh və inkişaf naminə çoxtərəfli platformaların qurulması, həmçinin liderlərin birgə fəaliyyətinin dəstəklənməsi istiqamətində fəal rol oynayır.

# BMT-dən bədbin proqnoz

## Gələn il qlobal iqtisadiyyatda 2,6 faiz azalma baş verəcək

Birləşmiş Millətlər Təşkilatı (BMT) 2025-ci ildə qlobal iqtisadi artım səviyyəsinin 2,6 faizə qədər azalacağını proqnozlaşdırır. Təşkilatın Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) yeni hesabatında qeyd edilir ki, qlobal səviyyədə artan maliyyə dəyişkənliyi və geosiyasi qeyri-müəyyənliklər fonunda qlobal iqtisadi artım zəifləyir. Ehtimallara görə, qlobal iqtisadi artım 2024-cü ildən başlayaraq qlobal ticarət və investisiyalar sektorunda maliyyə bazarı iştirakçıları təzyiqlərlə üzləşir. Maliyyə bazarlarında baş verən bu dəyişikliklər qlobal ticarətə real iqtisadi fəaliyyət qədər güclü təsir göstərir və maliyyə sektorları arasında balansda qırılmalar baş verir.

UNCTAD-ın ekspertlərinin qənaətinə görə, dollar likvidliyi və transsərhəd ödəniş sistemləri də beynəlxalq ticarət fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Maliyyə kanallarından bu dərin asılılığın artması ticarəti qlobal maliyyə və pul şərtləri ilə sıx əlaqələndirir. Məsələn, əsas maliyyə mərkəzlərində faiz dərəcələrində və ya investor əhval-ruhiyyəsində dəyişikliklərin baş verməsi dünyada ticarət həcmlərinə ciddi təsirlər göstərir. Nəticədə, maliyyə sıxıntıları və kredit əldə etmək imkanlarının məhdudluğu inkişaf etməkdə olan ölkələrdə maliyyə təzyiqləri şəraitində ticari-iqtisadi dövriyyələrə xələl gətirir.

### ABŞ-Çin ticarət müharibəsi dünya iqtisadiyyatına təsir edir

ABŞ və Çin arasında ticarət münasibətlərində gərginliklər də qlobal iqtisadiyyata təsir edir. Ticarət qarşıdurmalarını izləyən investorlar ölkədə ümumi istehlak xərclərinin azalmasını, qiymətlər isə artmağa davam etdiyini, hətta bəzi rayonlar resurs xərclərinin daha sürətli artımının qeydə alındığını nəzərə alaraq sərmayə planlaşdırmasında tərəddüdlər yaşadıqlarını bildirilər.

ABŞ-da baş verən iqtisadi proseslər dünya iqtisadiyyatının digər coğrafiyalarını da təsir altına almaqdadır. Bir neçə gün əvvəl açıqlanan məlumatlara əsasən, Avrozonada sənaye sektorunda istehsal həcmi əvvəlki aya nisbətən 1,2 faiz azalıb. Yaponiya da eyni göstərici 1,5 faiz geriləyib. Avropa İqtisadi Tədqiqatlar Mərkəzinin prezidenti Axim Vambax bildirib ki, qlobal qeyri-müəyyənliyin davam etməsi investorların dövlət investisiya proqramının həyata keçirilməsinə dəstək verməsini çətinləşdirir. Oktyabr ayının birinci yarısında Avrozonada metal emalı, əczaçılıq və maşınqayırma sənayelərində vəziyyət yaxşılaşsa da, avtomobil və qida sənayesində göstəricilər pisləşib. Avrozona üzrə İqtisadi İnkişaf Proqnozu İndeksi (İİPİ oktyabrda 3,4 bənd azalaraq 22,7 bəndə enib. Vambaxın fikrincə, maliyyə bazarı ekspertləri cari vəziyyətdəki dinamikanın enəcəyini, yalnız ortamüddətli dövrdə iqtisadi canlanmanın baş verəcəyini proqnozlaşdırırlar.



### Valyuta Fondunun ehtimalı

Beynəlxalq Valyuta Fondu (BVF) qlobal iqtisadiyyata dair proqnoz baxışlarını əks etdirən açıqlaması da ümidverici deyil. Qlobal iqtisadi mənzərəni əks etdirən təhlil sənədində vurğulanır ki, dünya iqtisadiyyatının 2025-ci və 2026-cı illərdə artım templəri 1-2 faiz aralığında artımla müşahidə ediləcəyi gözlənilir. İnkişaf etmiş ölkələrdə iqtisadi artım ötən il 2,9 faiz olduğu halda 1 faizlik göstərici ümumi geriləmənin təzahürü kimi dəyərləndirilir. BVF inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında inkişaf proqnozlarının qismən azalacağını fərz edir. Təhlillərə əsasən, qlobal ticarətin həcminin aşağı düşməsi iqtisadi artım göstəricilərinin enməsində əsas faktorlardan biri kimi çıxış etdiyindən qlobal mühitdə daralmaların başvermə riskləri mümkündür.

Fondun Azərbaycanla bağlı ehtimalları müsbətdir. Fərziyyələrə görə, Azərbaycan iqtisadiyyatı ortamüddətli dövrdə ildə 2,5 faiz artımla müşayiət olunacaq. BVF-nin cari və ortamüddətli dövr üzrə ssenarilərinə əsasən, ortamüddətli dövrdə ölkədə qeyri-neft ÜDM-nin həcminin davamlı artaraq ÜDM-də payı 80-82 faizə çatacaq. Qurumun iqtisadi artımla bağlı cari və ortamüddətli dövr üzrə proqnozları Azərbaycan hökumətinin inkişaf ssenariləri ilə təxmini olaraq üst-üstə düşür.

### Azərbaycan üzrə ssenarilər nə vəd edir?

Qlobal iqtisadiyyatda geriləmələrə baxmayaraq, Azərbaycan iqtisadiyyatı 2025-ci ili orta inkişaf göstəriciləri ilə başa vuracaq. Proqnozlara görə, cari ilin yekununda ÜDM-in həcmi 2 faiz gözlənilir. Ortamüddətli dövr üçün makroiqtisadi proqnozlara görə, 2026-cı ilin sonuna ÜDM-in həcmi 134,1 milyard manat, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcmi 101,7 milyard manat təşkil edəcəyi, 2029-cu ildə isə ÜDM-in 161,8 milyard manata qədər, o cümlədən qeyri-neft-qaz ÜDM-in həcminin 129,5 milyard manatadək artacağı gözlənilir. Ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,5 faiz, qeyri-neft-qaz ÜDM-nin 4,9 faiz olacağı fərz edilir.

Hökumətin nikbin makroiqtisadi ssenarisinə əsasən, ölkəmizin qarşıdakı 4 il ərzində iqtisadi inkişafının əsas drayverləri qeyri-neft sektoru üzrə yığım mənbələrinin təşviqi, “kölgə iqtisadiyyatı”nın səviyyəsinin azaldılması və müxtəlif sektorlarda çalışan fiziki şəxslərin gəlir vergisi üzrə verilmiş azadolmanın müddətinin 2025-ci ilin sonunda bitməsi və bunun sayəsində yeni fiskal gəlir kanalının yaranması, habelə iqtisadiyyatın özəl və dövlət sektorunda qeyri-rəsmi məşğulluğun qarşısının alınması və gəlirlərin leqallaşdırılması nəticəsində qeyri-neft yığım mənbələrinin genişlənməsi olacaq. 2029-cu ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 80 faizə çatacaq, neft-qaz sektorunun payı isə 20 faizə bərabər olacaq.

**ELBRUS CƏFƏRLİ**

# Brexit Brenterlə əvəzlənəcəkmi?

Bu günlərdə Böyük Britaniya Krallığının yenidən Avropa İttifaqının (Aİ) sıralarına qayıtmaq məsələsi gündəmə gəlib. Bu barədə rəsmi Londondan açıqlama verilib. Analitiklər Böyük Britaniya Krallığının yenidən Aİ-yə dönmək istəyini son illərdə qoca qitədə müşahidə edilən proseslərlə əlaqələndirirlər. Uzanan Rusiya-Ukrayna müharibəsi fonunda Avropa dövlətləri yeni çağırışlarla üzləşiblər. Bu çağırışlar müdafiə qabiliyyətinin gücləndirilməsindən tutmuş iqtisadi müstəqilliyin təmin edilməsinə, enerji asılılığının aradan qaldırılmasına, miqrant axınının qarşısının alınmasına, artan sosial gərginliyin azaldılmasınadək ən müxtəlif istiqamətləri əhatə edir. Bir sıra hallarda milli hökumətlər vəziyyətdən çıxış yolu tapmaqda aciz görünürlər. Böyük Britaniya rəsmilərinin açıqlamalarından məlum olur ki, ümumi proseslər bu ölkədən də yan keçməyib. Buna görə də hakimiyyət daha pis vəziyyətlə üzləşməmək üçün Avropa İttifaqına dönməyi zəruri sayır.

## 10 il bundan əvvəl baş tutan Brexit

Böyük Britaniyanın Aİ-dən çıxması ilə bağlı müzakirələr 2013-cü ildən başlayıb. Rəsmi olaraq isə Brexitin tarixi 10 il bundan qabağa uzanır. 2016-cı il iyunun 23-də Böyük Britaniya, İrlandiya və Birlik ölkələrinin Krallıq ərazisində qanuni şəkildə yaşayan vətəndaşları, həmçinin xaricdə 15 ildən az yaşayan britaniyalıların iştirakı ilə referendum keçirilib. Ümumi seçkilərdən fərqli olaraq, səsvermədə Lordlar Palatasının üzvləri, həmçinin Cəbəllütariqdə yaşayan Birlik vətəndaşları da iştirak ediblər. Səsvermənin nəticələrinə əsasən, Böyük Britaniya vətəndaşlarının 51,89 faizi Avropa İttifaqından çıxmağa, 48,11 faizi isə bu prosesin əleyhinə səs verib. Ölkəsinin Aİ-dən çıxmasına etiraz edən əvəxtkı Baş nazir Devid Kemeron referendumun nəticələri elan olunduqdan sonra istefa verib. Həmçinin Mühafizəkar Partiya rəsmi olaraq Aİ-dən çıxışa etirazını bildirib. İrlandiya və Şotlandiyadan olan seçicilər də Brexitin əleyhinə səs veriblər.

Referendumdan sonra proses daha bir neçə il uzanıb. `2020-ci il yanvarın 31-də Böyük Britaniyanın Avropa İttifaqına 47 il davam edən üzvlüyü rəsmi olaraq sona çatıb. Londonun mərkəzinə toplaşan minlərlə Brexit tərəfdarı ölkə həyatında yeni mərhələnin başlanmasını coşqu və Britaniya bayraqlarını dalğalandırmaqla qeyd edib. Birləşmiş Krallığın Avropa İttifaqını tərk etməsindən 1 saat əvvəl xalqa müraciət edən Baş nazir Boris Conson ölkənin yeni mərhələ üçün prioritetlərini açıqlayıb. O, Brexitin son deyil, yeni başlanğıc olduğunu bildirib.

Ölkənin Avropa İttifaqından çıxmasının səbəbləri kimi isə aşağıdakılar göstərilirdi:

-Büdcə problemi. Böyük Britaniya Aİ büdcəsinə daha çox töhfə verir və daha az gəlir götürürdü.

-Miqrant problemi. Əsas səbəblərdən biri kimi Böyük Britaniyaya kütləvi miqrant axınları göstərilirdi. Brexit tərəfdarlarının arqumentinə əsasən immiqrasiya Birləşmiş Krallıqda həyatın keyfiyyətini aşağı salırdı.

-Suverenliyin məhdudlaşdırılması. Avropa İttifaqından ayrılma tərəfdarlarının ən çox istifadə etdiyi arqumentlərdən biri dövlət suverenliyinin və müstəqilliyinin yenidən gücləndirilməsi və Aİ-nin məhdudlaşdırıcı qanun və qərarlarından azad olmaq idi.

Eyni zamanda, Böyük Britaniyanın Aİ-dən çıxmasının təsirsiz ötüşməsi. Burada iqtisadi və siyasi təsirləri önə çəkə bilrik. Proses tamamlandıqdan sonra ölkədə milli valyuta dəyər itirdi. Brexitin siyasi təsirləri isə həm ölkə daxilində, həm də bütün Aİ coğrafiyasında hiss olundu. Britaniyanın nümunəsi Fransa, Almaniya və Hollandiya kimi ölkələrin sağ siyasi hərəkatlarında müsbət qarşılandı və həmin ölkələrdə də referendum keçirmək tələbi gündəmə gəldi.



## Rəsmi London ziyanları etiraf edir

Rəsmi London ötən 10 ildə Aİ-dən çıxmağın ölkəyə vurduğu ziyanları açıq şəkildə etiraf edir. Birləşmiş Krallığın Baş naziri Kir Starmer bildirib ki, Birlikdən çıxış Krallığın iqtisadiyyatına mənfi təsir göstərib. O, cari iqtisadi vəziyyət barədə çıxışında vurğulayıb ki, Böyük Britaniya reallığı qəbul etməlidir.

Avropa İslahatları Mərkəzinin hesablamalarına görə, Krallığın ÜDM həcmi İttifaqda olduğu dövrlə müqayisədə 5,5 faiz azalıb. "Bloomberg Economics" Brexitdən illik itkiləri təxminən 100 milyard funt-sterlinq (124 milyard dollar) qiymətləndirib. Məlumatlara əsasən, biznes investisiyaları proqnozlaşdırılan səviyyə ilə müqayisədə 11 faiz aşağı olub. Böyük Britaniya ilə Aİ arasında mal ticarəti dövriyyəsinin həcmi 7 faiz azalıb.

Bundan başqa, Krallıqda tətbiq edilən yeni miqrasiya qaydaları səbəbindən avropalı işçilər ölkəni tərk edib. Nəticədə əmək bazarında problemlər yaşanıb. İqtisadi artım tempinin azalması ilə paralel şəkildə, dövlət xidmət strukturlarına təzyiqi artırıb, bu da müxtəlif kütləvi etirazlarla qarşılanıb. London şəhəri aktivlərinin Niderlandın paytaxtı Amsterdam və Almaniyanın Frankfurt kimi Avropa maliyyə mərkəzlərinə axını ilə üzləşib.

İctimai rəy də bu siyasi nəticəyə qarşıdır. Aparılan sorğulara əsasən, Brexiti səhv qiymətləndirən britaniyalıların sayı artır. Nəticəyə əsasən, bu tendensiya xüsusən gənclər arasında üstünlük təşkil edir.

Böyük Britaniyanın Aİ-dən çıxmasının nəticələri müxtəlif cür qiymətləndirilir. Məsələn, London İqtisadiyyat Məktəbin ekspertlərinin qənaətincə, Böyük Britaniyanın Avropa İttifaqından çıxması səbəbindən qida məhsulları britaniyalılara baha başa gəlir. Brexitdən əvvəl qiymət artımı 17 faiz olduğu halda, proses başa çatandan sonra bu rəqəm 25 faiz təşkil edib. 2020-ci il yanvarın 31-dən 2023-cü ilin martınadək ev təsərrüfatlarında qida məhsullarının qiyməti orta hesabla 250 funt-sterlinq artıb. Əlbəttə ki, bu siyahı kifayət qədər uzundur.

## Bəs geridönüş mümkündürmü?

Ziyanın yarısından geri qayıtmaq da faydalıdır, deyiblər. Bəs Böyük Britaniya üçün Aİ-yə geridönüş mümkündürmü? Bu, tərəflərin iradəsindən asılı olacaq. Baş nazir Kir Starmer bildirib ki, bu istiqamətdə əlaqələrin bərpası üçün London gərginliyi azaltmalı və İttifaqla daha sıx əməkdaşlığa doğru irəliləməlidir, ölkə yetkinlik nümayiş etdirməlidir.

Eyni zamanda, rəsmi London Aİ-yə qayıtmaq istədiyi kimi, Brüssel də buna "yox" demir. Burada anlayırlar ki, Böyük Britaniya Avropa İttifaqının əsas sütunlarından biri idi. Bu ölkənin geri dönüşü ilə qurum xeyli güclənə bilər ki, hazırda buna böyük zərurət var. Beləliklə, Brexitin Brenterlə və yaxud Breturnlə əvəzlənmə perspektivi böyükdür.

*Mübariz FEYİZLİ*

# NATO Ukraynanı tam dəstəkləyəcək

## Müharibə bitməsə, hər Alyans üzvü ayda 1 milyardlıq silah almalı olacaq

Ukrayna - Rusiya müharibəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində davam edən danışıqlar prosesində raundlar biri-birini əvəz etdikcə, maraqlı detallar müşahidə olunmaqdadır. Belə ki, Mayami və Moskva görüşlərinin ardından heç bir irəliləyiş əldə edə bilməyən ABŞ geri çəkilmək fikrində deyil. Bu isə danışıqların ilkin mərhələsində prosesdən kənarda qalan Avropa İttifaqını (Aİ) da aktivləşdirib. Bəlli olduğu kimi, Cenevrə görüşündə Aİ-nin irəli sürdüyü sülh planı "siyirtməyə qoyulmuşdu". Ukrayna ilə Rusiyanın razılığa gələ bilməməsi "köhnə qitə"ni yenidən aktivləşdirib. Xüsusilə, təkliflər paketində Ukraynanın NATO-ya üzvlüyünün bloklanması Alyans tərəfindən birmənalı qarşılanmır.

Çərşənbə günü Brüsseldə baş tutan NATO XİN başçılarının toplantısı da daha geniş mənada məhz Ukrayna-Rusiya müharibəsinin durumuna həsr olunub. Qeyd edək ki, qitədəki NATO liderləri Kremlə təzyiqi artırmaq istədiklərini, lakin bunun necə ediləcəyi barədə razılığa gələ bilmədiklərini bildiriblər. Toplantıda Alyansın müdafiə qabiliyyətinin gücləndirilməsi məsələləri müzakirə olunub. İclasda nazirlər güc və birlik ehtiyacını önə çəkərək, diqqəti müdafiə xərclərinin 2035-ci ilədək ümumi daxili məhsulun 5 faizi həddinə çatdırılmasını təmin edəcək etibarlı yol xəritəsinin hazırlanmasına yönəldiblər. Baş katib Mark Rutte bildirib ki, bu, istənilən təcavüzün qarşısını almağa qadir, daha güclü və adaptasiya oluna bilən Alyans qurmaq deməkdir. "NATO ərazisinin hər qarışını müdafiə etməyə hazır olmalıyıq", - deyən M.Rutte Alyansın şərq cinahında qüvvələrin gücləndirildiyini və müasir texnika ilə təchizatın artırıldığını qeyd edib.

## Təzyiq artırılmalıdır...

"Fərqli bir şey görməyincə, Rusiyanın sülh istəmədiyi qənaətinə gəlməyə davam edəcəyəm", - deyən İsveçin XİN başçısı Maria Malmör Stenerqard vurğulayıb ki, buna görə də 2 maddəlik bir plana - Ukraynaya dəstəyi artırmaq və Rusiyaya təzyiqi artırmaq - sadiq qalmalıyıq və onlara ən çox zərər verən yerə, yəni neft və qaz gəlirlərinə zərbə vurmalıyıq.

ABŞ Dövlət katibi Marko Rubionun iştirak etmədiyi toplantıda çıxış edən Litvanın XİN başçısı Kestutis Budris deyib ki, "Biz görürük ki, ABŞ bu prosesdə iştirak edir; onlar uzunmüddətli sülhə nail olmaq üçün diplomatik səylər göstərirlər. Son 6 ayda dəyişməyən şey Rusiyanın mövqeyidir". O əlavə edib ki, Rusiya qətiyyən atəşkəs və ya sülh müqaviləsi ilə maraqlanmır və əməllərini davam etdirir: "Bu isə bizə gələn il Ukrayna üçün maliyyə vəsaitləri ayırmağa bir səbəbdir."

Finlandiyanın xarici işlər naziri Elina Valtonen də bu təhlili təkrarlayaraq bildirib ki, "indiyə qədər təcavüzkar Rusiyadan heç bir güzəşt görməmişik". Onun estoniyalı həmkarı Marqus Tsahkna da eyni fikirləri bölüşüb: "Bizim baxış bucağımızdan görürük ki, Putin məqsədlərini dəyişməyib. Ona görə də Ukraynaya əlavə məhdudiyyətlər tətbiq etmək səhv yoldur. Əslində, Rusiyaya daha çox təzyiq göstərməliyik", - deyə o bildirib.

## Aktivlər verilsin - Belçika "yox" deyir...

Çıxış edən hər üç ölkənin XİN başçısı Rusiyanın dondurulmuş 200 milyard avroluq aktivlərinin bir hissəsinin növbəti iki il ərzində Ukraynaya maliyyələşdirməni təmin etmək üçün verilməsini dəstəkləyib. Qeyd edək ki, Aİ səviyyəsində irəli sürülən bu təklif, hazırda aktivlərin əksəriyyətinin saxlanıldığı Belçika tərəfindən bloklanır. Estoniya XİN başçısı bu addımı Avropanı gələcəkdə sülh prosesinə daxil olması üçün vasitə adlandırıb. "Putin bizim üçün qərar verə bilməz. ABŞ da bizim üçün qərar qəbul edə bilməz", - deyə o bildirib.

Lakin Belçikanın xarici işlər naziri Maksim Prevost təzminat kreditinə qarşı çıxdığını bildirib və onu "iqtisadi, maliyyə və hüquqi risklər yaradan" "ən pis variant" adlandırıb. "Biz tərəfdaşlarımızı və ya Ukraynanı qıcıqlandırmağa çalışmırıq. Sadəcə olaraq, aktivlərin verilməsi təklifindən kənar həmrəylik nümayiş etdirərək potensial fəlakətli nəticələrdən yayınmaq üçün planlar irəli sürməyə çalışırıq. Yeri gəlmişkən, Avropa Mərkəzi Bankı Ukraynaya 140 milyard avroluq "təzminat krediti"nə zəmanət verməkdən imtina edib. "Financial Times" bildirib ki, AMB sxemin faktiki olaraq Rusiya Mərkəzi Bankının aktivlərinin dondurulduğu depozitar olan Belçikanın "Euroclear" bankına son həlqə kreditoru olmasını tələb edəcəyini açıqlayıb. AMB-nin daxili təhlili göstərib ki, belə bir struktur birbaşa hökuməti maliyyələşdirməyə bərabər olacaq. Bu isə inflyasiyanı artırmaq və tənzimləyiciyə etimadı sarsıtmaq riski səbəbindən Aİ müqavilələri ilə qadağan edilmiş "pul maliyyələşdirməsi" formasıdır. AMB-nin imtinasından sonra Avropa Komissiyası kredit üçün müvəqqəti likvidlik təmin edəcək alternativ mexanizm hazırlamağa başlayıb.

## Alyansın üçdə ikisi 4 milyard dollara razılaşıb...

Toplantıda digər diqqətçəkən mövzu Ukraynada mümkün sülh sazişi ilə bağlı uzun sürən danışıqlar fonunda bir neçə NATO ölkəsinin Tramp arasında razılaşdırıldığı kimi, 2025-ci ilin yayından bəri qüvvədə olan PURL (Ukraynanın prioritet tələblər siyahısı) proqramı çərçivəsində Kiyev üçün əlavə Amerika silah paketləri alacağını açıqlaması olub. NATO-nun Baş katibi Mark Rutte Brüsseldə xarici işlər nazirlərinin görüşündən sonra bildirib ki, Alyansın üçdə ikisi PURL-a ümumilikdə 4 milyard dollardan çox vəsait ayıracaq. Bu vəsaitlər NATO və ABŞ Prezidenti Donald sində təmin ediləcək. İlk dəfə olaraq NATO tərəfdaş ölkələri Avstraliya və Yeni Zelandiya bu alışlarda iştirak edəcək. Ukraynanın hava hücumundan müdafiə sistemləri və digər silahlarla, eləcə də "Patriot" idarəolunan raketləri ilə təchiz olunması üçün təxminən 1 milyard dollar ayrılacağı gözlənilir.



## Almaniya 200+25 milyona razılaşdı...

Xüsusilə, Almaniyanın Ukrayna üçün Amerika silahlarının alınmasına ilin sonuna qədər əlavə 200 milyon dollar (təxminən 172 milyon avro) köçürəcəyi bildirilib. Bunu xarici işlər naziri Yohan Vadeful bildirib. Norveç, Polşa, Hollandiya və Kanada da PURL mexanizmi çərçivəsində milyonlarla dollar ianə etməyi öhdələrinə götürüblər. Qeyd edək ki, PURL mexanizminin tətbiqindən sonra Almaniya oktyabr ayında 500 milyon dollarlıq silah paketi maliyyələşdirib. Yeni 200 milyon dollarlıq paketə əlavə olaraq, Almaniya NATO fonduna 25 milyon avro da köçürəcək - bu, hazırda cəbhədə buzlu və qarlı şəraitdə olan ukraynalı hərbçilərin lazımi qış avadanlıqları ilə təmin olunması və adekvat tibbi yardım alması üçündür.

## Rutte: Kiyev üçün 15 milyard dollar lazımdır

NATO-nun Baş katibi Ukraynaya yeni hərbi yardım zəmanətlərini yaxşı xəbər adlandırıb. O, NATO tərəfdaşlarının bu ilin sonuna qədər PURL mexanizmi çərçivəsində 5 milyard dollar ayıra biləcəyi fikri ilə yanaşı, müharibənin davam edəcəyi təqdirdə Kiyevə 2026-cı il üçün təxminən 15 milyard dollar gərəkəcəyini deyib. Ruttenin sözlərinə görə, NATO ölkələri gələn il hər ay ən azı 1 milyard dollar həcmində ABŞ silah və sursatı almalıdırlar. O qeyd edib ki, buraya hava hücumundan müdafiə sistemləri üçün tutucu raketlər, eləcə də hücum sistemləri daxil olmaqla, vacib avadanlıqların alınması da daxildir.

*P.İSMAYILOV*

# Daha bir münaqişə sona çatdı

## Ruanda və Konqo arasında sülh...

Uzun illər davam edən Ruanda-Konqo münaqişəsinə birdəfəlik son qoyulması üçün zəmin yaranıb. Donald Trampın şahidliyi ilə Ağ Evdə Konqo Demokratik Respublikasının (KDR) Prezidenti Feliks Çisekedi və Ruanda Prezidenti Pol Kaqamenin sülh sazişi imzalaması bunu deməyə əsas verir. Saziş həmçinin faydalı qazıntılarla zəngin olan regiona ABŞ investisiyalarının cəlb edilməsini nəzərdə tutur.

Hələ bir neçə gün əvvəl Ağ Evin mətbuat katibi Kerolayn Livitt təsdiqləmişdi ki, Prezident Donald Tramp dekabrın 4-də Ruanda və Konqo Demokratik Respublikasının liderləri - Pol Kaqame və Feliks Çisekedini sülh sazişini imzalamaq üçün qəbul edəcək: “Cümə axşamı Prezident Tramp Ruanda və Konqo Demokratik Respublikasının prezidentlərini tarixi sülh və iqtisadi saziş imzalamaq üçün qəbul edəcək. Bu sazişin əldə olunmasında o, vasitəçi kimi çıxış edib”.

### “23 Mart Hərəkatı” Konqoya qarşı...

Xatırladaq ki, tərəflər arasında silahlı münaqişə müəyyən fasilələr olmaqla uzun illərdir davam edir. Sonuncu dəfə Konqo ilə Ruanda arasındakı müharibə 2022-ci ilin martında Ruanda hökumətinin dəstəklədiyi “23 Mart Hərəkatı” (M23) üsyançılarının hücumu ilə başlayıb. Münaqişə əsasən Konqonun resursla zəngin Şimali və Cənubi Kivu əyalətlərini əhatə edib. Bölgədəki döyüşlər yüz minlərlə insanın ölümünə və milyonlarla insanın evindən didərgin düşməsinə səbəb olub. Üsyançılar Konqo Demokratik Respublikasının şərqində iki vilayətin paytaxtı da daxil olmaqla 100-dən çox şəhər və yaşayış məntəqəsini ələ keçiriblər. Onların nəzarətində olan ərazilərdə hökumətə tabe olmayan yerli idarəetmə orqanları yaradılıb.

Donald Tramp ABŞ-da yenidən hakimiyyətə gəldikdən sonra bu münaqişənin də başa çatması üçün təşəbbüslər göstərib. Bunun nəticəsi olaraq iyun ayında ABŞ Dövlət katibi Marko Rubionun iştirakı ilə Vaşinqtonda KDR-in xarici işlər naziri Tereza Kayivamba və Ruandanın xarici işlər naziri Oliver Nduhunqirehe saziş imzalayıb. ABŞ və Qətərin vasitəçiliyi ilə imzalanmış saziş ərazi bütövlüyünə hörmət və hərbi əməliyyatların qadağan edilməsi, qeyri-dövlət silahlı



qruplarının tərksilahı, təhlükəsizlik məsələlərinin əlaqələndirilməsi üçün birgə mexanizmin yaradılması ilə bağlı müddəaları ehtiva edir.

Tərəflər, həmçinin qaçqınların və məcburi köçkünlərin geri qaytarılmasının asanlaşdırılması, humanitar yardımların açılması və regional iqtisadi inteqrasiya strukturunun yaradılması barədə razılığa gəliblər.

Lakin bu razılaşmadan bir müddət sonra Ruanda Prezidenti Pol Kaqame ABŞ-ın vasitəçiliyi əsasında Konqo ilə imzalanmış sülh sazişinin həyata keçirilməsinə şübhə ilə yanaşdığını

### Kim haqlıdır?

bildirmişdi. Razılaşma Ruanda qoşunlarının 90 gün ərzində BMT-nin bu ilin əvvəlində regionun ən böyük iki şəhərini ələ keçirmiş M23 üsyançılarına dəstək verdiyi deyilən Şərqi Konqodan çıxarılmasını nəzərdə tutur. Ruanda hökuməti isə öz növbəsində M23-ü dəstəklədiyini inkar edir və silahlı qüvvələrinin Konqo ordusuna və 1994-cü ildə Ruanda soyqırımı ilə əlaqəli Hutu milislərinə, o cümlədən Ruandanın Azadlığı Uğrunda Demokratik Qüvvələrə (FDLR) qarşı özünümüdafiə üçün hərəkət etdiyini bildirib.

Kaqame jurnalistlərə deyib ki, Ruanda imzaladığı müqaviləyə sadiqdir, lakin Konqo ölkəsinə qarşı terrorçuların zərərsizləşdirmək üçün verdiyi vədləri yerinə yetirməsə, bu, problemlərə yol aça bilər.

### Aİ hər iki ölkəyə dəstək verəcək

Nəhayət, tərəflər iyulun 19-da Dohada aparılan danışıqlar zamanı sülh sazişini imzalamaqla bağlı razılığa gələ bildilər və Ağ Evdə bu hadisə reallaşmış oldu. Öz növbəsində, Avropa İttifaqı (Aİ) Ruanda və Konqo Demokratik Respublikasına (KDR) iqtisadi və siyasi dəstək göstərməyə hazır olduğunu bəyan edib. Aİ-nin ali nümayəndəsi Kaya Kallas bildirib ki, Konqo və Ruanda arasında saziş onillik münaqişənin sona çatması istiqamətində mühüm addımdır: “Bunun mümkün olmasında ABŞ-ın iştirakını alqışlayıram. Sazişin uğurlu olması üçün regional tərəfdaşların iştirakı vacibdir. Aİ həm siyasi, həm də iqtisadi dəstək göstərməyə hazırdır”.



Beləliklə, Donald Tramp daha bir münaqişənin həllində vasitəçi oldu. Sülh sazişinin nə qədər dayanıqlı olmasını isə zaman göstərəcək.

**N.BAYRAMLI**

# Fransa prezident seçkilərinə hazırlaşır

## Makronun xələfi, Le Penin əvəzedicisi...

Aylarla davam etmiş hökumət böhranı Fransada hazırkı iqtidara qarşı inamı kəskin şəkildə azaldıb. Bunun nəticəsidir ki, prezident seçkilərinə 1 il 4 ay qalmasına baxmayaraq, Fransa ictimaiyyəti buna indidən hazırlaşır.

Xatırladaq ki, Fransada prezident seçkilərinin birinci turu 2027-ci ilin aprel ayına planlaşdırılıb. Hələlik konkret tarix müəyyən edilməyib, lakin onun hazırkı prezident Emmanuel Makronun səlahiyyət müddətinin 13 may 2027-ci il tarixində bitməsinə 20-35 gün qalmış ilk tur reallaşmalıdır. Əgər prezidentliyə namizədlərdən heç biri birinci turda səslərin 50 faizdən çoxunu toplaya bilməsə, ən çox səs toplayan iki namizəd iki həftə sonra keçiriləcək ikinci turda iştirak edəcək. İkinci prezidentlik müddəti bitdikdən sonra hazırkı dövlət başçısı artıq prezidentliyə namizəd ola bilməyəcək.

Sorğuların nəticələri də göstərir ki, xalq Makron və onun komandasına inanmır. Sorğuların nəticələrinə diqqət çəkən bəzi siyasətçilər isə Makronun prezidentlik dövrünü başa vura bilməmə ehtimalını da irəli sürür.

### Sürpriz namizəd...

Qeyd edək ki, son sorğularda sürpriz bir ad ortaya çıxıb - məsələn, “Odoxa-Mascaret”in sorğusuna görə, Milli Birlik (Rassemblement National-RN) partiyasının sədri Jordan Bardella ikinci turda qarşısına çıxacaq hər bir namizəddən üstün görünür. O, sorğuda Eduard Filip (53%-47%), Qabriel Attal (56%-44%), Rafael Qlüksmən (58%-42%) və Jan-Lük Melanşon (74%-26%) qarşısında üstünlük qazanıb. Əsas namizədlərdən sayılan Marin Le Pen isə sorğuda test olunmayıb. “Reuters” qeyd edir ki, Marin Le Pen və atası Jan-Mari Le Pen əvvəllər prezident seçkilərinin ikinci turunda üç dəfə məğlub olduqları siyasi ittifaqlarla qarşılaşıblar. Mart ayında məhkəmə 57 yaşlı Marin Le Peni və partiyasının bəzi üzvlərini mənimsəmədə günahkar bildikdən sonra 5 il müddətinə dövlət vəzifələrində namizədliyini irəli sürməkdən məhrum edib. O, qərardan apelyasiya şikayəti verib. Qadağanın qüvvədə saxlanılacağı təqdirdə Bardella partiyanın yeganə namizədi sayılacaq.

### Le Penə qarşı açılan iddialar geri götürülməsə...

Marin Le Pen isə son aylara qədər bütün sorğularda lider olub. Fransızların əksəriyyəti Marin Le Penin 2027-ci ildə Fransada prezident seçkilərində qalib gələ biləcəyinə inanır. Hətta bu ilin sentyabrında “Elabe” sorğu agentliyi tərəfindən BFMTV televiziya kanalı üçün aparılan sorğuda respondentlərin 61 faizi Le Penin 2027-ci il seçkilərindən sonra Fransanın yeni prezidenti ola biləcəyinə inandığını önə sürmüşdü. Onların 52 faizi bu ssenarini mümkün hesab edib, 9 faizi isə tamamilə əmin olduğunu deyib. Qeyd edək ki, Le Penin siyasi imici əhalinin əksər təbəqələri, xüsusən də təqaüdçülər arasında olduqca yüksəkdir.



### 23 yaşında partiya siyahısına liderlik etdi...

Le Penin yeni əvəzedicisi olan Jordan Bardella 1995-ci ildə italyan və Əlcəzair kökləri olan bir ailədə anadan olub. Gələcək siyasətçi cəmi bir yaşında olanda valideynləri boşanıb və o, anası ilə qalıb. Bardella özü uşaqlıqda yoxsulluq içində yaşadığını desə də, Fransa mediası onun atasının kifayət qədər imkanlı olduğunu bildirib. Məktəbi bitirdikdən sonra Bardella Sorbonna Universitetinə daxil olub - lakin orada qalması qısamüddətli olub. O, siyasətdə karyera qurmaq üçün təhsilini dayandırıb. 2012-ci ildə isə cəmi 16 yaşında ikən Milli Cəbhəyə qoşulub. Onun məhz bu siyasi cərəyana üstünlük verməsi öz təbirincə desək, “Milli Cəbhədən daha çox Marin Le Pen üçün” olub. 2014-cü ildə Sena-Sen-Denis departamentində partiya təşkilatının rəhbəri seçilib və partiyanın ən gənc regional lideri olub. 2015-ci ilin birinci yarısında o, Avropa Parlamentinin üzvü Jan-Fransua Jalkın köməkçisi kimi çalışıb və daha sonra İl-de-Frans regional şurasına (partiya siyahısında) seçilib.

İki il sonra Bardella 2017-ci il prezident seçkilərində Marin Le Penin komandasında təmsil olunub. Florian Filippot partiyadan ayrıldıqdan sonra Milli Cəbhənin rəsmi sözçülərindən biri seçilib. Partiyanın 16-cı Konqresindən sonra o, Milli Gənclər Cəbhəsinin lideri seçilib. Bir il sonra sədr müavini, Avropa Parlamenti seçkilərindən sonra isə Avropa Parlamentinin üzvü olub. O, 23 yaşında partiya siyahısına rəhbərlik edib.

2021-ci ildə Marin Le Pen 2022-ci il prezident seçkilərində iştirak etmək üçün istefa verdikdə Bardella əvvəlcə birinci müavin, sonra isə partiya sədri seçilib. O, partiyanın 26 min üzvünün təxminən 85 faizinin dəstəyini alıb. Yaşına görə Bardella gənclər tərəfindən çox sevilir və sosial mediada onlarla fəal şəkildə ünsiyyət qurur. Ekspertlər qeyd edirlər ki, o görünüşü və mülayim davranışı ilə fransız seçicilərinin rəğbətini qazanıb. Köhnə Milli Cəbhəyə xas



olan irqçi və antisemit şüarlardan imtina edərək Bardella seçicilərə müraciətində fərqli obraz yaradıb - “Onun adı Le Pen deyil, o, heç vaxt mübahisəyə girməyib və açıqlamalarında çox diqqətli olub”, - deyə onun haqqında söylənilir.

### Makrona etimadsızlıq - parlament islahatları dondurdu...

Bu arada Fransada davam edən siyasi-iqtisadi böhran seçkinin daha erkən baştutma ehtimalını istisna etmir. Qeyd edək ki, Fransa Milli Assambleyası pensiya islahatını 2027-ci ilə qədər dondurub. Yelisey Sarayı parlamentin aşağı palatasının düzəlişi dəstəkləməyəcəyinə ümid edirdisə, bu, alınmadı. 255 millət vəkili pensiya islahatının dayandırılmasına səs verib. Emmanuel Makronun parlamentdəki dayağı hesab edilən hakim İntibah Partiyasının demək olar ki, bütün üzvləri səsvermədə bitərəf qalıb və hətta üç nəfər islahatın dayandırılmasını dəstəkləyib. Bunun nəticəsidir ki, noyabr ayında keçirilən ictimai rəy sorğusunda fransızların 89 faizi Makronun siyasətini demək olar ki, hər sahədə “uğursuz” adlandırıb. Bu isə 2017 və 2022-ci il seçkilərində ona səs verənlərin dörddə üçünü əhatə edir. Bundan əlavə, respondentlərin təxminən, 90 faizi Makronun prezidentlik müddəti bitdikdən sonra Fransa siyasətində hansısa əhəmiyyətli rol oynamasına da qarşı çıxıb.

İslahatın dondurulması isə Fransa büdcəsinə gələn il 300 milyon avro, 2027-ci ildə isə 1,9 milyard avro təsir göstərəcək. Bunlar əhəmiyyətli məbləğlərdir, lakin ekspertlər bildirirlər ki, qərar son on səkkiz ay ərzində qarşıqlıq yaşanan Fransada müvəqqəti də olsa, sabitlik formalaşdıracaq. Hökumət dövlət maliyyəsindəki boşluğu vergilərin, xüsusən də Sosialist Partiyasının millət vəkili Sandrine Runelin sözlərinə görə, 2,7 milyard avro gətirəcək sözdə ümumi sosial töhfələrin artırılması ilə doldurmağı planlaşdırır. Etiraf edilir ki, bu, son zamanlar Fransa üçün daha da baha başa gəlib.

**P.İSMAYILOV**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Könül işi

## Heç bir mənafe güdmədən...

Ümid yeri olmaq, savab qazanmaq, xalqına, vətəninə xidmət etmək könüllülük prinsipidir. Biz dünən də belə idik, bu gün də beləyik, şübhəsiz ki, sabah da bu keyfiyyətimizə sadiq qalacağıq. Könüllülük həm də kollektiv əmək deməkdir, bərabər işləmək istedadıdır.

Dünya tarixində müasir anlamda könüllü fəaliyyət anlayışına ilk dəfə XVII əsrdə Fransa ordusunda rast gəlinir. Bu anlayış könüllü hərbçi olmaq istəyən fransızların qeydə alınmasından sonra meydana çıxıb. 1881-ci ildə isə ABŞ-də vətəndaş müharibəsi zamanı qadınların könüllü olaraq tibb bacısı kimi fəaliyyət göstərməsi minlərlə könüllünü ətrafında birləşdirən Amerika Qırmızı Xaç Təşkilatının yaranmasına səbəb oldu.

### Könüllülük nədir?

Könüllülük insanların heç bir mənafe güdməyərək məlumat, bacarıq, zaman və hansısa bir sahədə təcrübələrini öz istəkləri ilə ictimai təşəbbüs və yaxud ictimai təşkilatın məqsədi üçün istifadə etmələridir.

Xarici ölkələrdə olduğu kimi, ölkəmizdə də könüllülük Qeyri-Hökumət Təşkilatlarının (QHT) mövcudluğunun təməl ünsürlərindəndir. Könüllülərlə çalışmaq qurumun daha geniş fəaliyyət göstərə bilməsi və geniş əlaqələr qura bilməsi baxımından çox önəmlidir. Hər il dekabrın 5-i dünyada Beynəlxalq Könüllülər Günü kimi qeyd olunur.

### Könüllülük psixologiyası...

Ölkəmizdə daha çox könüllülük əsasında çalışan insanlara QHT-lərdə rast gəlmək mümkündür. Çünki bu cür təşkilatların iş prinsipi könüllü olaraq, hər hansı maddi mənafe güdmədən vətəndaş cəmiyyətinin inkişafına dəstək verməkdir. Zamanını, əməyini və bacarığını hər hansı bir layihədə sərf edən insanlar daha çox yardım etmək və başqaları üçün faydalı olmaq üçün könüllü çalışdıqlarını qeyd edirlər. Ancaq bununla yanaşı, bir sıra başqa istəklər də var ki, insanları könüllü olmağa sövq edir. Könüllülük psixologiyasını başa düşmək könüllülərin çalışdığı qurumlarda iş prosesinin daha da effektivliyinə təsir göstərə bilər. Könüllülərin əməyindən istifadə edən hər bir qurumun könüllülük psixologiyasını yaxşı bilməyi vacibdir.



### İnsanlar nə üçün könüllü olurlar?

İnsanlar hər hansı bir qurumda və yaxud müəyyən təşəbbüslərdə uzunmüddətli və qısa zaman kəsiyində könüllü olaraq çalışırlar. Bu, insanların şəxsi istəyindən, eləcə də boş vaxtından asılıdır. İnsan psixologiyasından asılı olaraq cavab axtaracağımız sualın cavablarına da müxtəlif aspektdən yanaşmaq olar. İnsanların könüllülük psixologiyasına, yəni nə üçün könüllü olaraq çalışdıqlarına diqqət yetirək:

-İnsanlar yaşadığı sosial çevrələrində önəmli və tanınmış biri olmaq istəyir;

-Könüllü olaraq çalışaraq özlərinə sosial bir əhatə qazanaraq tənhalıqdan və yaxud məyusluqdan özlərini qurtarmaq istəyirlər;

-İnandığı hər hansı bir işə dəstək olmaq istəyirlər;

-Könüllü olaraq çalışmaqla müəyyən təcrübə qazanmaq istəyi;

-Görülən işlər əyləncəli görünə bilər və dolayısı ilə orada olmaqdan insan zövq ala bilər;

-Müəyyən təcrübə və bacarıqları olan insanlar könüllü olaraq çalışmaqla öz biliklərini itirməmək istəyirlər;

-Könüllü olan şəxs özünü ehtiyac duyulan biri kimi görmək istəyir;

-Yeni dost qazanmaq istəyi;

-Özlərində olan qabiliyyətləri başqaları ilə bölüşmək istəyi;

### Uğur formulumuz...

Tariximizin ən böyük, təsvirolunmaz təmənnasız könüllülük aktı, əlbəttə ki, Vətənin müdafiəsinə könüllü yollanmağımızdır. Həm də kişi-qadın fərq etmədən... 21-ci əsr ölkəmizin könüllülük həyatında dərin izlər buraxmaqdadır. Çoxsaylı dövlət, özəl, ictimai təşkilat öz fəaliyyətilə könüllülük prinsiplərini qoruduğunu göstərir və hətta beynəlxalq miqyasda xeyriyyəçilik ənənələrimizi nümayiş etdirirlər.

Bu gün ölkəmizdə gənclərin fəaliyyətində könüllülük xüsusi yer tutur və bu sahəyə maraq olduqca böyükdür. Ancaq 2013-cü ilə kimi könüllülük ölkədə kiçik komandalarla fəaliyyət göstərirdi. Həmin il Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) yanında fəaliyyət göstərən “ASAN Könüllüləri Təşkilatı” yaradıldı. Bu hərəkat minlərlə gəncin ilkin əmək vərdişləri qazanmasına, öz peşəsinin incəliklərini öyrənməsinə, yeni bilik və bacarıqlar əldə etməsinə geniş imkan verdi.

### Könüllülüyün məkanı, yaşı, sərhədi yoxdur...

Dövlət başçısının 2020-ci ili ölkəmizdə “Könüllülər ili” elan etməsi könüllülük hərəkatının inkişafına daha da təkan verdi. Bununla da könüllü şəxslərin əmək bazarında öz yerlərini tutmalarına münbit şərait yarandı. Eyni zamanda, könüllülük gənclərdə vətənpərvərlik və dövlətçiliyimizə sədaqət kimi keyfiyyətləri formalaşdırdı.

Könüllülüyün zamanı, məkanı, yaşı, sərhədləri yoxdur. Bunu edən şəxs heç bir proqrama qoşulmadan, heç bir ictimai birliyin və ya təşkilatın üzvü olmadan da yerinə yetirə bilər. Çünki könüllülük könül işidir...

*Yeganə BAYRAMOVA*

---

*Yeganə*

# Regionlarımız necə inkişaf edir?

## Ölkəmizdə yaradılan yeni iş yerinin 75 faizi regionların payına düşür

Ölkənin bölgələrinin yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər üzrə) böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açıb. Regionlarımız 20 il əvvəlki dövrlə müqayisədə müsbət dərəcədə çox dəyişib. Həyata keçirilən davamlı siyasət regionların inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaradıb.

Dövlət proqramları çərçivəsində görülmüş işlər ölkədə həyata keçirilən ümumi sosial-iqtisadi inkişaf siyasətinə ciddi dəstək vermiş və nəticədə 2004-2024-cü illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,8 dəfə, o cümlədən qeyri-neft sektoru 3 dəfə artıb. Bu dövrdə sənaye real ifadədə 2,8 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,9 dəfə, kənd təsərrüfatı 2 dəfə yüksəlib. Strateji valyuta ehtiyatları 2004-cü ilə nisbətən 40 dəfədən çox artaraq 73 milyard ABŞ dolları səviyyəsinə çatıb. Dövlət proqramlarının icrası dövründə xarici ticarətin coğrafiyası daha da genişlənmiş, onun əmtəə strukturu təkmilləşdirilib. Bu dövrdə Azərbaycan 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları aparıb, qeyri- neft ixracı 5 dəfə artıb.

Dövlətin sosialyönümlü iqtisadiyyat quruculuğu və insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində apardığı siyasət öz müsbət töfhəsini vermiş, ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2004-2024-cü illər ərzində 1,8 milyonu daimi olmaqla, 2,2 milyon yeni iş yeri yaradılıb ki, iş yerlərinin də 75 faizi regionların payına düşür.

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, hazırda regional iqtisadi siyasətin əsas hədəfləri regionlarda iqtisadi aktivliyin artırılması, regionlara daxili və xarici sərmayələrin cəlb olunması, texnologiyaların tətbiq olunması, istehsal və ixrac imkanlarının artırılmasıdır: “Bu gün regionlarımızın inkişafını şərtləndirən əsas amil odur ki, onlar ölkənin ümumilikdə həyata keçirilən sosial-iqtisadi inkişafı strategiyasından təcrid edilmir. Regionların inkişafı ölkədə davamlı həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına əsaslanır. Vətən müharibəsində əldə olunan qələbə ilə Azərbaycanda mahiyyət etibarilə yeni inkişaf mərhələsi başlanıb. Heç şübhəsiz ki, qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu və statusunu daha da möhkəmləndirəcək”.



Deputatın sözlərinə görə, buna görə də, ilk növbədə, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış ilk öncə bu ərazilərdə iqtisadi aktivliyin bərpasını tələb edir. Bunun üçün iqtisadi fəaliyyətin tədricən bərpası və bu fəaliyyətin yeni mühitə reinteqrasiyası ətrafında təhlillərin aparılmasını zəruri edir: “Həmçinin regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi üçün hazırda yeni regional iqtisadi mərkəzlərin yaradılması ilə növbəti keyfiyyət mərhələsinə qədəm qoyulur. Eyni zamanda, regionlarda, həmçinin iş yerlərinin açılması və məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır, demək olar ki, bir çox regionlara ixtisaslaşdırılmış şəkildə investisiyaların cəlbi artmaqdadır. Çünki investisiyaların təşviqi sahəsində görülən işlər regionların inkişafına müsbət təsir göstərir. İnvestisiyaların təşviqi mexanizminin uğurlu tətbiqi nəticəsində bu günədək 400-dən çox layihə təşviq olunub və onların hesabına ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub. Bunların nəticəsində 16 mindən çox yeni iş yeri açılıb”.

Beləliklə, postpandemiya dövründə regionların və iqtisadiyyatın inkişafına təkan verəcək addımlardan biri də yeni konsepsiyaların qəbuludur. Bura davamlı və yüksək iqtisadi artım, daxili və xarici təsirlərə dayanıqlıq, inkişafdan hər bir vətəndaşın bəhrələnə bilməsi, yüksək və ədalətli sosial təminat, paytaxt və regionların tarazlı inkişafı və digər məsələlər daxildir.

V.Bayramov qeyd edib ki, regional inkişaf proqramları çərçivəsində yerli sahibkarlığın dəstəklənməsi, təhsil və sağlamlıq xidmətlərinin inkişafı ilə bağlı tədibirlər də prioritetdir ki, bütün bu kompleks tədbirlər sosial-iqtisadi inkişafı sürətləndirir. Kənd təsərrüfatı, sənaye və turizm kimi sahələrə yönəldilən investisiyalar yerli iqtisadiyyatı şaxələndirərək daha dayanıqlı və rəqabətli edir: “Sosial-iqtisadi inkişafın təşviqi həm də əhali arasında sosial ədalətin bərpa olunmasına və həyat şəraitinin yüksəldilməsinə xidmət edir. Dövlət tərəfindən həyata keçirilən regionların inkişafı proqramları mövcuddur. Məhz iqtisadi islahatlar və sosial layihələr vasitəsilə kənd və şəhər əhalisi arasında gəlir fərqləri azaldılır. Bir sözlə, bu addımlar ölkənin ümumi iqtisadi inkişafına müsbət təsir göstərir və cəmiyyətin bütün təbəqələrini əhatə edən inkişaf modelinə zəmin yaradır”.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafı” istiqaməti üzrə hazırlanmışdır**


---

*İdman*

### T.Abbasov: Bəhreyndəki mundialdan medalla dönəcəyimizə inanıram

Azərbaycanın parabadminton millisinin üzvlərinin Bəhreynin Manama şəhərində keçirləcək dünya çempionatından medalla dönəcəyi gözlənilir. Bunu “Report”a açıqlamasında yığmanın baş məşqçisi Teymur Abbasov deyib. O, yarışın mili üzvlərinə böyük təcrübə qazandıracağını vurğulayıb:




“Bəhreyndə keçiriləcək dünya çempionatında iki kateqoriya üzrə iştirak edəcəyik. Bu yarışa ciddi hazırlaşmağı, təlim-məşq toplanışları keçirməyi planlaşdırırıq. Gözləntilərimiz, təbii ki, medaldır. İdmançılarımız gəncdirlər, düşünürəm ki, çətin olacaq. Amma bu yarış onlara böyük təcrübə qazandıracaq. Buna baxmayaraq, mundialdan medalla dönəcəyimizə inanıram”.

Qeyd edək ki, dünya çempionatı 2026-cı il fevralın 7-dən 14-nə qədər təşkil olunacaq. Azərbaycan ilk dəfə yarışda iki kateqoriya üzrə təmsil olunacaq.

İdmançılardan İbrahim Əliyev SU-5 kateqoriyası üzrə kişilərin şəxsi yarışında, yeniyetmə paralimpiyaçılar Zəhra Salmanlı ilə Nərmin İskəndərova tandemi isə SH-6 kateqoriyası üzrə qadınların qoşa yarışında mübarizə aparacaq.



Azərbaycan Həndbol Federasiyasında (AHF) yeni təyinat olub. Bu barədə “Report”a federasiyadan bildirilib.

### AHF-da yeni təyinat

“Azəryol” həndbol komandasının sabiq baş məşqçisi Vidadi Əliyev AHF-nin cənub bölgəsi üzrə koordinatoru təyin edilib. Onun rəhbərliyi ilə Astara, Cəlilabad, Lənkəran, Lerik, Masallı və Yardımlı rayonlarında 2012-2013-cü il təvəllüdlü oğlanlardan ibarət yeni komandaların formalaşdırılması istiqamətində işlər aparılacaq.

Qeyd edək ki, V.Əliyev daha əvvəl kişilərdən ibarət “İdman Akademiyası” ilə yanaşı, milli komandanın baş məşqçisi vəzifəsində çalışıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2475
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova